RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 56 (8372) CÜMƏ, 13 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# YENİ PARLAMENTİN YENİLİKLƏRİ

**Budəfəki parlament seçkiləri həmişəkindən fərqli oldu - növbədənkənar keçirildi.**

**Budəfəki seçkilərin özü də fərqli oldu - daha çox namizəd - 1314 nəfər mandat uğrunda mübarizəyə qoşuldu!**

**Budəfəki namizədlərin mübarizəsi daha kəskin, daha gərgin keçdi - həm fərdi görüşlərdə, həm də sosial şəbəkələrdə!**

**Budəfəki seçkilərin nəticələrinə MSK-da daha fərqli yanaşıldı - bir dənə də şikayət və narazılıq diqqətdən kənarda qalmadı, hamısı - həm fərdi müraciətlər, həm telefon çəkilişləri, həm də sosial şəbəkələrdəki süjetlər obyektiv araşdırılaraq şəffaf şəkildə hüquqi cəhətdən qiymətləndirildi.**

**Budəfəki seçkilərdə dörd dairənin nəticələri ləğv olundu - bu o deməkdir ki, seçkilərin qüsursuz keçirilməsində Azərbaycanın özü maraqlıdır.**

❖ ❖ ❖

Altıncı çağırış Milli Məclisin ilk iclasına da fərqli şəkildə başlandı - əvvəlcə yeni seçilən deputatlar koronavirus müayinəsindən keçirildilər, sağlamlıqlarına əminlik yarandı.

**Parlamentin ilk iclasında dövlət başçısı cənab İlham Əliyev geniş, parlaq, həm də fərqli - indiyədək toxunmadığı məsələləri və problemləri əhatə edən maraqlı bir nitq söylədi!**

**Yenə sinədəftər, zəruri rəqəmlərlə, faktlarla zəngin, keçmişdə görülən işlərə yekun vuran, gələcək vəzifələri dəqiq müəyyənləşdirən dərin təhlili nitqlə dinləyənləri valeh etdi!**

*Təqribən bir saat davam edən bu nitqi hamı az qala nəfəs dərmədən, bir sözü buraxmadan diqqətlə dinlədi, dönə-dönə alqışladı!*

Kiçik bir yazıda möhtəşəm bir çıxışda toxunulan bütün məsələlərdən bəhs etmək mümkünsüzdür.

Odur ki, diqqəti bəzi vacib məqamlara çəkmək istəyirik.

❖ ❖ ❖

*Hər bir xalqın parlamenti fikir mübarizəsi meydanı, siyasi baxışların qarşılaşdığı, döyüşdüyü yer sayılır.*

*Parlament cəmiyyətdə gedən prosesləri özündə əks etdirir, ölkənin inkişafına, dövlətin tərəqqisinə xidmət edən qanunvericilik bazası yaradır.*

*Sağlam təməl üzərində qurulan, vətənpərvər, dövlətçiliyə sadiq millət vəkillərindən ibarət parlamentlər öz missiyasının öhdəsindən uğurla gələrək xalqına və dövlətinə dəyərli töhfələr verə bilir.*

**Adətən cəmiyyətdə gedən proseslər parlamentdə əksini tapır!**

**Parlamentdəki proseslər də öz növbəsində cəmiyyətə təsirsiz ötüşmür!**

Müstəqilliyin ötən qısa dönəmində Azərbaycan Respublikasının Milli Məclisində çox hadisələrin, yaddaqalan xoş, hərdən isə xoşagəlməz halların dəfələrlə şahidi olmuşuq:

- Səhv və yanlış addımlar atılıb...
- İclaslar qarşılıqlı ittihamlar, bəzən bazar ruhunda, üstəlik bir-birlərini təhqirlər şəraitində də keçirilib...
- Əlbəyaxa davalar baş verib...
- Siqaret tüstüsünə bülənərək çayxana söhbətləri aparılıb...
- Deputatlara qarşı zor tətbiq edilib, iclas zalından bayıra buraxılmayıblar...

Yalnız Ulu Öndər Heydər Əliyevin geriyə dönüşündən və qısa müddətdə Milli Məclisə rəhbərliyindən sonra parlamentdə saf ab-hava, işgüzar əhvali-ruhiyyə yaranmasına, xalq və dövlət qarşısında məsuliyyət hissi, parlamentarizm mədəniyyətinin formalaşmasına başlanılmışdır.

Beləliklə, parlament müzakirələri yolu ilə vətəndaş müharibəsinin alovları söndürülüb, taleyüklü qərarların qəbuluna nail olunub, yeni ənənələrin təməli qoyulub.

**Ulu Öndərin yaratdığı yeni parlament real həyata yaxınlaşdı, ölkədə baş verən proseslərə adekvat reaksiya verdi, dövlətə və dövlətçiliyə xidmət yolunu tutdu.**

**Heydər Əliyevin qoyduğu yol, müəyyən etdiyi siyasi istiqamət bu gün də Milli Məclis tərəfindən uğurla davam etdirilir.**

*Altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında Prezident İlham Əliyev yeni dövrün yeni vəzifələrinə, onun həyata keçirilməsi üçün vacib olan məqamlara xüsusi diqqət yetirdi!*

*Ardı 2-ci səh.*

## Ağdaş və Göyçay rayonlarında yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş və Göyçay rayonlarında ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin (siyahı əlavə olunur) qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.1-ci yarımbəndində göstərilmiş məbləğin 11,97 milyon (on bir milyon doqquz yüz yetmiş min) manatı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## Müslüm Maqomayevin abidəsinin ucaldılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə dəyərli töhfələr vermiş fitri istedada malik görkəmli sənətkar, dünya şöhrətli opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində görkəmli sənətkar Müslüm Maqomayevin abidəsi ucaldılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Müslüm Maqomayevin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## B.Ə.Muradovanın Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bahar Əvəz qızı Muradova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## E.H.Axundovanın Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmira Hüseyn qızı Axundova Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## G.Q.İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## A.S.Məmmədovun Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## A.X.Xuduyevin Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda, Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azər Xudayar oğlu Xuduyev Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda, Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2020-ci il*

## Siyasi müstəqillik, davamlı sabitlik, inamlı yüksəliş

### Prezident İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır

**İstənilən dövlətin beynəlxalq münasibətlər sistemində nüfuzunu yüksəldən səbəblər var. Bunların arasında ən mühümü təbii ki, dövlətin həyata keçirdiyi xarici və daxili siyasətin məzmunu və mahiyyətidir. Müasir dövrdə dövlətin nüfuzu ilə yanaşı, həm də ona göstərilən beynəlxalq etimadı da məhz bu səbəb meydana çıxarır. Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Azərbaycanın öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu var. Son 25 illik tarixə nəzər yetirsək, aydın şəkildə bunu görə bilərik. Son 16 ildə isə Azərbaycanın tamamilə fərqli siyasi və iqtisadi reallıqlar şəraitində inkişaf etdiyinin şahidiyik.**

#### Heç vaxt indiki qədər güclü olmayan ölkə

"Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və müstəqillik, inkişaf yolu ilə bundan sonra da gedəcəyik. Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb".

2003-cü ildən bugünədək verdiyi bütün vədlərinə sadiq qalaraq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət söylədiyi fikirlərlə üst-üstə düşür. Tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yürüdən cənab İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır.

Elə bir beynəlxalq müzakirə mövzusu yoxdur ki, Azərbaycan həmin vaxt atdığı addımı hansısa dövlətin siyasi və ya iqtisadi maraqlarına uyğunlaşdırsın.

*Ardı 2-ci səh.*

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə rəsmi səfəri çərçivəsində 20-yə yaxın sənəd imzalandı. Enerji, kənd təsərrüfatı, elm-təhsil, turizm, mədəniyyət, idman və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparıldı. Türkmənistanın dövlət başçısının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşləri oldu. Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirildi. Bir sözlə, bu səfər Azərbaycan-Türkmənistan strateji əməkdaşlığını bir daha təsdiqləyərək onun inkişafına yeni təkan verdi. Hər iki prezident sənədlərin imzalanmasından sonra bəyanatla çıxış etdilər.**



## Azərbaycan-Türkmənistan əməkdaşlığının müasir mərhələdə perspektivləri müəyyən edildi

İmzalanan sənədlər iki qonşu ölkənin iqtisadiyyatının və mədəniyyətinin müxtəlif sahələrini əhatə etdi. Məsələn, respublikamızın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi ilə Türkmənistanın "Türkmənhavayolları" Agentliyi arasında protokol imzalandı. Digər bir sənəd isə Azərbaycanın adıçəkilən nazirliyi ilə "Türkmen Aragatnaşyk" Agentliyi arasında informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumudur.

*Ardı 3-cü səh.*

## Baş Nazir Əli Əsədov iş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında Qərar imzalayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında Qərar imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Qərarda deyilir: "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır: İş və istirahət günlərinin ardıcıl olmasını təmin etmək məqsədilə 2020-ci ilin 29 mart istirahət günü ilə 27 mart iş gününün yeri dəyişdirilsin".



# YENİ PARLAMENTİN YENİLİKLƏRİ

*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

Dövlət başçısı çıxışında əvvəlcə yenicə başa çatmış seçkilərə münasibətini açıqladı, öz qiymətini verdi:

- *"Hesab edirəm ki, bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir".*
- *"Bu seçkilər bir daha göstərdi ki, bu gün Azərbaycan iqtidarı tərəfindən aparılan siyasi kursa alternativ yoxdur. Bunun da çox sadə səbəbləri var. Son illər ərzində ölkəmizdə müşahidə olunan inkişaf, əlbəttə ki, insanları inandırır".*
- *"...Bu seçkilərin nəticələri görülmüş işlərin təzahürüdür. Çünki bu gün həm təhlükəsizlik, həm də sabitlik təmin edilir".*

Cənab İlham Əliyev növbədənkənar parlament seçkilərinin keçirilməsinə də aydınlıq gətirdi: *"Bu seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdir".*

Milli Məclisin ilk iclasında təşkilati məsələlərə baxılarkən bütün bu deyilənlərin şahidinə çevrildik.

Daha doğrusu, Milli Məclisdə də ciddi islahatlara start verildiyinə əmin olduq!

❖ ❖ ❖

Ən mühüm yenilik və dəyişiklik Milli Məclisin sədrinin seçilməsindən başladı. Parlament çoxluğu hüququndan istifadə edən Yeni Azərbaycan Partiyası sədrliyə Sahibə xanım Qafarovanın namizədliyini irəli sürdü və təklif hamı tərəfindən dəstəkləndi.

Beləliklə, növbəti dövr ərzində ali qanunverici orqana xanım millət vəkilinin rəhbərlik edəcəyi aydın oldu.

**Sahibə Qafarova cəmiyyətdə müsbət imicə, Milli Məclisdə nüfuza, Avropa qurumlarında zəngin iş təcrübəsinə malik ziyalı qadınlardandır. Onun göstərilən etimadı doğruldacağına heç bir sübhə yoxdur!**

Milli Məclis sədrinin müavinləri də təzələndi!

*Tanınmış hüquqşünas, böyük parlament təcrübəsi olan Əli Hüseynli birinci müavin, Adil Əliyev isə müavin seçildi.*

Daha bir neçə sürpriz təyinatlar!

Onun da müəllifi cənab İlham Əliyevdir!

**Məhz YAP sədrinin tövsiyəsi ilə VI çağrış Milli Məclis rəhbərliyində və komitə rəhbərliyində digər partiyaların - müxalifət partiyalarının üzvləri ilk dəfə yer tutdular!**

*Fəzail İbrahimli Milli Məclis sədrinin müavini, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Asim Mollazadə, Əli Məsimli, Sabir Hacıyev, Sahib Alıyev, Elşən Musayev, Musa Qasımlı, Fazil Mustafa - qeyri-YAP-çılar isə komitə sədrlərinə müavin oldular.*

**Bir daha xatırladırıq ki, indiyədək Azərbaycan Parlamentində belə hal olmayıb!**

Bu dəyişikliklərə cənab İlham Əliyevin verdiyi qiymət isə vəziyyəti lakonik əks etdirir:

*"... Həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Bu, bizim islahatçı kursumuzu əks etdirir".*

Dövlət başçısı belə bir addımın hansı məqsədlə atılmasına da aydınlıq gətirdi: *"Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var".*

❖ ❖ ❖

Sonuncu Prezident seçkilərindən sonra - 2018-ci ilin aprelində Milli Məclisdəki andiçmə mərasimindəki çıxışında cənab İlham Əliyev hərtərəfli və dərin islahatların keçiriləcəyi anonsunu vermişdi.

Ötən dövrdə struktur və iqtisadi islahatlarının, bir sıra kadr dəyişikliklərinin şahidi olduq.

*Yeniləşmə Prezident Administrasiyasını əhatə etdi, bu ali qurum yeni tərkibdə formalaşdırıldı, yeni şöbələr yaradıldı.*

Yeni tərkibdə təşkil olunan Nazirlər Kabineti daha operativ və çevik fəaliyyətə başladı.

Bu dəyişikliklərin həyatımıza təsirini də gördük:

- Azərbaycanın iqtisadi inkişafı davamlı sürətini qorudu;
- Qeyri-neft sektorunun yüksək sürətlə inkişafı təmin edildi;
- İmzalanan sosial paketlər nəticəsində xalqın sosial rifahı xeyli yüksəldi;
- Dünya birliyində ölkəmizin siyasi nüfuzu və ona olan etimad daha da artdı;
- Azərbaycan beynəlxalq reytinq cədvəllərindəki yerini daha da yaxşılaşdırdı;
- Ən islahatçı ölkələr sırasındakı yerini möhkəmləndirdi.

**Şübhəsiz islahatlar və yeniliklər dalğası Milli Məclisdən də yan keçə bilməzdi.**

Üstəlik yeni tərkibdə yeniləşən Milli Məclisin başlanmış islahatlara yeni təkan verəcəyi də real gözləntidir.

❖ ❖ ❖

Dövlət başçısı tərəfindən millət vəkillərinə qanun yaradıcılığı funksiyası ilə bağlı iki mühüm xatırlatma oldu:

*Birincisi, "Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin".*

*İkincisi, "Hesab edirəm ki, bizim milli dəyərlərimizlə, milli ənənəvi dəyərlərimizin qorunması ilə bağlı qanunvericilik bazası daha da geniş olmalıdır".*

Yəqin ki, Milli Məclis bundan sonrakı fəaliyyətində deyilənləri hökmən nəzərə alacaqdır.

❖ ❖ ❖

Son dövrdə cənab İlham Əliyev təmtəraqlı inauqurasiya mərasimlərindən imtina edərək onu Milli Məclisdə keçirilən yığcam andiçmə ilə əvəzləmişdir. Bu və Milli Məclisdə baş tutan digər tədbirlərdə, adətən, dövlət başçısı dünyada gedən prosesər, Azərbaycanın görəcəyi işlər, qarşıda duran vəzifələr və müxtəlif hədəflər barədə dərin təhlili çıxışlarla kifayətlənir. Milli Məclisin və deputatların fəaliyyəti ilə bağlı müəyyən məsələlərə toxunaraq tövsiyələrini söyləsə də, dərinliklərə getmir, iradlarını bildirmirdi.

Bu mənada sonuncu nitqi fərqli oldu. Xüsusən deputatın seçicilərlə görüşləri, davranışı, beynəlxalq qurum və təşkilatlarda aparılan müzakirələrdə iştirakı və sərgilədiyi mövqe barədə ciddi fikirlər səsləndirdi.

**Əslində, bunu həm də millət vəkillərinə "Prezident dərsləri" də adlandırmaq olar!**

*Daha bir mühüm məqam: Cənab İlham Əliyev indiyədək öz nümunəsi ilə bu dərsləri "qiyabi şəkildə" nümayiş etdirmişdi!*

❖ ❖ ❖

Biz hamımız mavi ekranlar vasitəsilə Prezident İlham Əliyevin Valday Diskussiya Klubunda, MDB Dövlət başçıları Şurasının Aşqabad görüşündə və Münxen Beynəlxalq Konfransındakı klassik çıxışlarını böyük məhəbbət və heyranlıqla izlədik, düşmən dövlət başçısı Paşinyanın tarixi faktlar və polad məntiqə söykənən arqumentlər qarşısında necə rəzil, axmaq və gülünc duruma düşdüyünü seyr edərək böyük mənəvi zövq də aldıq.

**Əslində, dövlət başçısının bu mövqeyi, münaqişə ilə bağlı bilgiləri, habelə qətiyyət və prinsipiallığı beynəlxalq tədbirlərdə iştirak edən hər bir azərbaycanlıdan tələb etməsi başadüşülən, normal və arzuediləndir!**

Daha bir incə məqam: Bu tövsiyəni deputatlara verən dövlət başçısı "qızım, sənə deyirəm, gəlinim, sən də eşit" prinsipi ilə mövqeyindən, partiyalılığından, iqtidara necə münasibət bəsləməsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşından gözləməkdə də haqlıdır!

Bəli, Azərbaycan yenicə dövlət müstəqilliyi qazanmış gənc bir ölkədir!

Onun zəngin təbii sərvətləri və həsəd aparılası geosiyasi mövqeyi var!

Eyni zamanda bu gənc dövlət və onun müdrik başçısı müstəqil siyasət yürüdür, heç kimin qarşısında baş əymir, dövlətin və xalqın maraqlarını hər şeydən uca tutur.

Azərbaycanı ram etmək, onu vassal dövlətə, qapazaltıya çevirmək üçün çox cəhdlər göstərilir, çox oyunlar oynanılır, məkrli planlar işə salınır!

Lakin hər dəfə daş qayaya rast gəlir!

**Dövlət başçısı İlham Əliyev heç kimdən və heç nədən qorxmadan sözünü üzə deyir, açıq və qətiyyətli mövqe göstərir, bütün təhdidləri zərərsizləşdirir!**

**Bütün bunları etmək üçün sarsılmaz iradəsi, diplomatik məharəti, analitik təfəkkürü və uzaqgörənliyi, dərin biliyi, müxtəlif dillərdə parlaq nitq söyləmə qabiliyyəti, ən əsası tükənməz vətən sevgisi və əsl vətənpərvərliyi vardır!**

*Məhz bunların sayəsində indiyədək bizə göstərilən təzyiq və təsir cəhdləri, ikili standartların tətbiqi, hansısa qərarın zorla qəbul etdirilməsi, yaxud nəyisə diqtə niyyəti, sanksiyalarla hədələmək təhdidi puça çıxmışdır!*

İlham Əliyev bu məsələlərlə bağlı deputatlar qarşısına qoyduğu vəzifələri geniş şərh etməklə yanaşı, həm də konkretləşdirdi:

- *"Bütövlükdə beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır".*
- *"O təşkilatlarda ki, bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Yəni onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır".*
- *"Mən bütün deputatlara deyirəm, heç bir sövdələşməyə getmək olmaz. Beynəlxalq təşkilatlarla işləmək lazımdır, biz də işləyirik, ancaq bizim maraqlarımız var və kifayət qədər arqumentlərimiz var. Ona görə mən sizi bu mübarizəyə çağırıram".*

❖ ❖ ❖

Prezident Milli Məclis deputatlarının ölkə daxilindəki fəaliyyətləri ilə bağlı məsləhət və tövsiyyələrini də söylədi. Bunları yığcam şəkildə belə ümumiləşdirmək olar:

* Deputatlar daim seçiciləri ilə sıx təmasda olmalı, dairələrdə fəal iş aparmalıdırlar;

* Mövcud problemləri öyrənib üzə çıxarmalı, bunları yerli və mərkəzi icra orqanlarının diqqətinə çatdırmalıdırlar;

* Hökumət üzvləri ilə daim təmasda olmalı, problemlərin həlli məqsədilə təkliflər hazırlamalıdırlar və s.

Bunlarla bağlı cənab İlham Əliyev gözləntilərini də ortaya qoydu: "Mən istəyirəm ki, Azərbaycanda parlamentin rolu və təsir imkanları artsın, - həm də ümumi işimizə müsbət təsir göstərəcək. Çünki məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki bu yoxdur, heç bir iş getməyəcək".

❖ ❖ ❖

Bu gün müstəqil Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır.

İqtisadi cəhətdən güclü, Cənubi Qafqazda söz sahibidir!

Dünyada nüfuz qazanıb, səsi və sözü eşidilir!

Reallaşdırdığı transmilli layihələr özünə və onunla əməkdaşlıq edən ölkələrə böyük fayda gətirir, dəstək qazandırır.

Güclü orduya və iradəyə malikdir.

İndiyədək qarşısına qoyduğu bütün məqsədlərə çatıb!

*Azərbaycanı bu zirvəyə cənab İlham Əliyev ucaldıb!*

*Xalq onu böyük məhəbbətlə sevir, inanır, arxalanır!*

*Bugünkü sabitlik və əmin-amanlıq da onunla bağlıdır!*

**Dövlət başçısı başladığı islahatları sürətlə sona çatdırmaqda qərarlıdır!**

**Bu islahatlar doğma Azərbaycanı daha güclü və qüdrətli edəcəkdir!**

İşğal altındakı torpaqların azad edilməsi yolunda ciddi addımlar atılacağı da gözlənilir.

Şübhə etmirik ki, xalqın səsi və iradəsi ilə formalaşan yeni Milli Məclis Prezident İlham Əliyevin bu gün qarşıya qoyduğu vəzifələri uğurla yerinə yetirəcək, dövlətimizin tərəqqisinə dəyərli töhfəsini verəcəkdir!

**Bəxtiyar SADIQOV**

# AŞ PA-nın prezidenti Milli Məclisin Sədrini təbrik edib

Deputat Sahibə Qafarovanın VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi münasibətilə parlamentin ünvanına təbriklər daxil olmaqdadır.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, bu münasibətlə Avropa Şurası Parlament Assambleyasının prezidenti Rik Daems martın 11-də Sədrə təbrik məktubu göndərib.

AŞ PA-nın prezidenti məktubunda S.Qafarovanın Milli Məclisin Sədri seçilməsinin onu qəlbən sevindirdiyini və bu münasibətlə Avropa Şurası Parlament Assambleyası adından ürəkdən təbrik etdiyini yazıb.

Məktubda deyilir: "Fəxr edirəm ki, Parlament Assambleyamızın üzvü belə mühüm vəzifəyə seçilib. Əminəm ki, Sizin bilik, təcrübə və peşəkarlığınız yeni və məsuliyyətli fəaliyyətinizdə faydalı olacaqdır. Siz bizim Assambleyanın həmişə ən fəal üzvlərindən biri olmusunuz. Xüsusilə, miqrasiya və gender bərabərliyi ilə əlaqəli məsələlərdə fəal iştirakınız hamı tərəfindən yüksək qiymətləndirilib. Əminəm ki, Sizin Sədr seçilməyiniz Milli Məclislə Parlament Assambleyası arasında əlaqələrin daha da möhkəmlənməsinə öz layiqli töhfəsini verəcək".

Özünün də bir müddət əvvəl AŞ PA-nın prezidenti seçildiyini xatırladan Rik Daems qeyd edir ki, səlahiyyəti müddətində Parlament Assambleyası ilə milli parlamentlər arasında münasibətləri yeni səviyyəyə qaldırmaq, quruma üzv ölkələrlə daha fəal əməkdaşlıq etmək üçün yorulmadan çalışacaq. Məktubda deyilir: "Bu missiyanı həyata keçirmək üçün quruma üzv 47 dövlətin və onların milli parlamentlərinin dəstəyinə ehtiyacım olacaq. Məhz bu səbəbdən Avropa Şurasına üzv olan hər bir dövlətə səfər etməyi nəzərdə tuturam. Sizinlə səmimi əməkdaşlığımıza inanıram. Ümid edirəm ki, tezliklə Bakıda görüşmək imkanımız olacaq".

# Siyasi müstəqillik, davamlı sabitlik, inamlı yüksəliş

*Əvvəli 1-ci səh.*

Enerji məsələlərindən başlamış xarici siyasi əməkdaşlığa, beynəlxalq təşkilatlarda iştiraka, qlobal terrorizmlə mübarizəyə qədər Azərbaycan tamamilə müstəqil siyasət həyata keçirir.

Cənab İlham Əliyev Azərbaycanın dünyadakı artan nüfuzunu dəyərləndirərkən qeyd edir ki, bu gün ölkəmizdə xalqın iradəsi hökm sürür: "Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə".

## 20 il əvvəlki ölkə ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetlərindən biri də ölkədə güclü iqtisadiyyatın yaradılması idi. Son 16 ildə iqtisadi cəhətdən əldə edilən uğurlara nəzər yetirsək görərik ki, Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu isə dünyada rekord göstəricidir.

Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsi təxminən 50 faizdən 4,8 faizə düşüb. Bu fakt isə onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində Azərbaycanın xarici ticarəti 6,4 dəfə artıb. Ölkənin birbaşa xarici borcu ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir.

16 ildə valyuta ehtiyatlarımız 51 milyard dollara çatıb. Ölkə iqtisadiyyatına 270 milyard dollar investisiya yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Bu da onu deməyə əsas verir ki, cənab İlham Əliyev həm də Azərbaycanı investisiyalar məkanına çevirib. Xarici və yerli investorlar üçün əlverişli şərait yaradılıb.

Fevralın 25-də Azərbaycana səfərə gələn Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizin son illərdəki inkişafını qiymətləndirərkən qeyd etmişdir ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. Bu gün infrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var.

## Ən islahatçı dövlət, ən islahatçı Prezident

Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlara əsasən Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri, cənab İlham Əliyevi isə ən islahatçı dövlət başçısı hesab edir.

Xüsusən də son 3 ildə həyata keçirilən sosial-iqtisadi, siyasi islahatlar həm ölkə ictimaiyyəti, həm də beynəlxalq reytinq təşkilatları tərəfindən yüksək dəyərləndirilir.

Martın 10-da Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev son 16 ildə əldə edilən uğurları dəyərləndirərkən söyləmişdir ki, iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur: "Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib. Ondan sonra yoxsulluq, 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100 faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni istəsək, xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun".

Bu illər ərzində iqtisadi sahədə bu uğurlar əldə edilib, sosial sahədə maaşlar, pensiyalar on dəfədən çox artıb. Məcburi köçkünlərin, şəhid ailələrinin problemləri öz həllini tapır. Azərbaycan kosmik dövlətə çevrilib.

## Nəqliyyat qovşağı, Xəzərdə ən böyük donanmaya məxsus dövlət

Azərbaycan bu müddət ərzində həm də etibarlı tərəfdaş və tranzit ölkəyə çevrilib. Nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdıran Azərbaycan Avrasiyada nəqliyyat qovşağı kimi mövqelərini getdikcə gücləndirir.

Bu gün Xəzərdə ən böyük donanma (200-dən çox gəmi) ölkəmizə məxsusdur. Son 16 ildə ölkədə 6 beynəlxalq hava limanı tikilib. Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan transmilli layihələr Azərbaycana iqtisadi və siyasi dividendlər gətirməkdədir. Bu ilin sonunda bütün seqmenti fəaliyyətə başlayacaq "Cənub qaz dəhlizi" isə Avropanın enerji xəritəsini dəyişəcək. Azərbaycan qazı İtaliyaya və Avropanın digər ölkələrinə çatacaq.

Hazırda Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Prezident İlham Əliyevin söylədiyi kimi, bu rəqəmlər təsdiq edir ki, Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq.

Ötən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanınır. Ölkəmizin iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub ki, bu mərhələdə də əsas məqsədlərdən biri ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını uzun müddətə təmin etməkdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici diplomatiya və tam müstəqil siyasət onu deməyə əsas verir ki, Azərbaycanı qarşıda böyük uğurlar gözləyir.

Milli Məclisdəki çıxışında da dövlət başçısı qətiyyətlə vurğuladı ki, Azərbaycan daim müstəqil, prinsipial və öz milli maraqlarına uyğun siyasət yürüdür. Heç bir qüvvə Azərbaycan dövlətinə təzyiq göstərə bilməz.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Ağdaş və Göyçay rayonlarında 2020-ci ildə qazlaşdırılması nəzərdə tutulan ərazi vahidlərinin siyahısı

| Sıra №-si | Ərazi vahidləri |
|---|---|
| | **Ağdaş rayonu** |
| 1. | Ağcaqovaq kəndi |
| 2. | Aşağı Qobuüstü kəndi |
| 3. | Eymur kəndi |
| 4. | Ərəbşəki kəndi |
| 5. | Hacılar kəndi |
| 6. | Qobuüstü kəndi |
| 7. | Malay kəndi |
| 8. | Mürsəl kəndi |
| 9. | Şıxlı kəndi |
| 10. | Yenikənd kəndi |
| 11. | Yuxarı Nemətabad kəndi |
| | **Göyçay rayonu** |
| 1. | Yenikənd kəndi |

## Atəşkəs rejimi 32 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 32 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Aşağı Əskipara, Qızılhacılı, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



# Prezidentdən məmurlara ciddi ismarıc

Dövlət başçısı İlham Əliyevin vəzifə sahiblərindən tələbləri sadədir: "Daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək".

Bu tələbləri layiqincə yerinə yetirə bilən məmurların işindən həm dövlət, həm də xalq razı olacaq. Vəzifəsinin öhdəsindən gələ bilməyənlər isə cəzasız qalmayacaqlar.

Prezident İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin edib və onları qəbul edərkən dövlətin kadr siyasətinə də toxundu. Vəzifəsindən uzaqlaşdırılan dövlət məmurlarının buraxdıqları səhvlərin dövlətçiliyə, sosial rifaha və bütünlükdə islahatlara vurduğu ziyanlardan danışdı, korrupsiya ilə mübarizədə barışmaz mövqe tutduğunu bir daha bəyan etdi.

Dövlət məmurunun vəzifəsi ona etimad edilən kürsüdə Azərbaycan Prezidentinin yüksək etimadını doğrultmaq, iqtidar-xalq birliyinə sədaqətlə xidmət etməkdir ki, vətəndaşlarla xalq arasında bağlılıq daha güclü olsun. Bu məmnunluğa tam nail olmaq üçün daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaqla sosial-iqtisadi inkişafa töhfə vermək lazımdır.

Prezident yeni təyinat alan icra başçılarına hər iki rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, dövlət proqramları barədə ətraflı məlumat verdi, görülən işlərin mərkəzi icra orqanları tərəfindən dövlət investisiya proqramı çərçivəsində icra edildiyini və yeni tələblərini bildirdi. Əlbəttə, yeni kadrlar daha novatorçu olmalı, mövcud potensialları hərəkətə gətirməli, xarici və yerli investorları cəlb etməyi bacarmalıdırlar. Bu vəsaitləri dövlətdən ummaq vərdişini yaddan çıxarmaq lazımdır.

Faktiki olaraq Prezident bu qəbulda bir daha məmur korpusuna ciddi ismarıc göndərdi və hamını dövrün tələbləri səviyyəsində fəaliyyətə çağırdı. Bütün icra başçıları fəal olmalı, investorları cəlb etməyi bacarmalıdırlar. Dövlət başçısı bəzi məmurların vəsait qoymaq istəyən investorlara mane olmasına, onlara qarşı əsassız və qanunsuz tələblər irəli sürməsinə ciddi iradını bildirdi: "Ona görə bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır. Rayonlarda həm ictimai-siyasi ab-hava sağlam olmalıdır, ictimai münasibətlər sağlam zəmində qurulmalıdır, həm də xalqı narahat edən problemlər həll edilməlidir".

Dövlət başçısının yeni təyinat alan icra başçıları ilə qəbulunun kütləvi informasiya vasitələrinə çıxarılması, qüsurları açıq müzakirə etməsi bütün ölkənin rəhbər işçilərinin, məmur korpusunun ciddi məsuliyyətə dəvət edilməsi deməkdir. Prezident korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizədə öz mövqeyini belə ifadə etdi: "Bu siyasət şüurlu siyasətdir və bundan sonra da davam etdiriləcək. Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur, heç kimin keçmiş xidmətləri nəzərə alınmayacaq".

Prezident birbaşa və kəskin tərzdə bildirdi ki, bundan sonra əgər kimsə dövlət işində, xüsusilə icra başçısı vəzifəsində işləmək istəyirsə, bütün sadalanan tələb və prinsiplərə əməl etməlidir.

Prezident Neftçala rayonunda aparılmış xüsusi əməliyyata da toxunaraq dedi ki, bəzi yüksək ranqlı məmurlar nəinki xalqın, dövlətin etimadını doğrultmurlar, hətta özlərini elə aparırlar ki, hərəkətləri ikrah doğurur. Neftçala rayonunda rüşvətxorluq və korrupsiyanın sistem xarakter daşıması bütün qurumları sarsıtmışdı. İcra başçısının vəzifəsinin məsuliyyətini unudub kabinetində rüşvət yığması onun mənəvi deqradasiyaya uğramasını göstərir: "Mərkəzi Rayon Xəstəxanasında bütün şöbələr baş həkimə aylıq haqq ödəyir. Məktəblərdə rüşvətxorluq kütləvi xarakter alır. Məktəb direktorlarından haqq tələb olunur, bələdiyyələrdən rüşvət tələb olunur, ictimai əsaslarla ödənişli iş yerlərinə insanlar cəlb edilmir, onların ödəniş kartları götürülür və icra başçısı tərəfindən o pullar çəkilir. Eyni zamanda dövlətdən maaş alan və ödənişli ictimai yerlərdə işləməli olan həmin vətəndaşlar icra başçısına aid bir çox kommersiya obyektlərində və təsərrüfatlarda qul kimi işlədilir".

Ölkə rəhbəri bütün bunları məmurun uğradığı mənəvi deqradasiyanın pik həddi kimi qiymətləndirdi və mövqeyini sərt şəkildə ortaya qoydu: "İstisna olunmur ki, onun kimi icra başçıları və digər mərkəzi və yerli icra orqanlarının rəhbərləri ona oxşar hərəkətlər edir. Onların hər biri araşdırılacaq. Heç kim toxunulmaz deyil..."

Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində də Prezident İlham Əliyev bir daha bu məsələlərə toxundu, kadr islahatlarının sistemli surətdə aparıldığını vurğuladı, Prezident Administrasiyasının demək olar ki, tam yeni tərkibdə formalaşdığını, yeni şöbələrin yaradıldığını, Nazirlər Kabinetində və nazirliklərdə kadr islahatlarının aparıldığını bildirdi. Dövlət başçısı bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərənin bütün xalqı hiddətləndirdiyini məxsusi qeyd etmiş və bundan sonra da təmizləmə işlərinin aparılacağını qətiyyətlə bildirmişdir: "Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə dövlət işində işləmək istəyirsə, onun niyyəti də, əməlləri də təmiz olmalıdır. Əgər hansısa bir adam özündə bu xüsusiyyətləri görmürsə, o, dövlət işindən getsin, sabah bədbəxt olmasın".

Prezident İlham Əliyev martın 4-də Tovuzda "ASAN Həyat" kompleksinin açılışındakı çıxışında da korrupsiya və rüşvətxorluqla mübarizə tədbirlərinin sistem xarakteri daşıdığını və bu mübarizənin davam etdiriləcəyini bildirmişdi. Dövlət başçısının son günlər ərzində bir neçə dəfə korrupsiya ilə mübarizə və məmur harınlığına qarşı sərt çıxış etməsi deməyə əsas verir ki, ölkənin inkişafı, iqtisadi dirçəlişinin davamlı olması üçün bütün vacib addımlar atılacaq və qanunu pozanlar ciddi cəzalarını alacaqlar.

Dövlət başçısı yeni təyin olunan icra başçılarını qəbul edərkən onların gənc olduğunu, bu günədək heç bir qanunazidd əmələ əl atmadıqlarını bildirdi. Gənclərə yol açılacaq, meydan veriləcək, yeni təfəkkürlü insanlar önəmli vəzifələrə təyin ediləcəklər: "Biz köhnə psixologiyanı bu yollarla qıra bilərik. Cəmiyyətimizi sarsıdan xoşagəlməz hallara ancaq bu yolla son qoya bilərik. Ona görə rəhbərlik edəcəyiniz rayonlarda işlər sizin fəaliyyətinizdən asılı olacaq. Əgər sizə göstərilən böyük etimadı bütövlükdə doğrultmasanız, bu eyni zamanda cəmiyyətdə də məyusluq yaradacaq".

Dövlət başçısı belə hesab edir ki, rayonlarda vəziyyət təhlil edilməli, insanları narahat edən məsələlər ciddi araşdırılmalı, vacib məsələlər ya yerində həll olunmalı, ya da onların həlli yolları ilə bağlı təkliflər hazırlanmalıdır. Hər bir vəzifə sahibi dövlətin ona göstərdiyi etimadı doğrultmalı, ölkənin sosial iqtisadi tərəqqisi üçün əlindən gələni əsirgəməməli, var gücü ilə çalışmalıdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Daxili Qoşunların 28 illik döyüş və xidmət yolu





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının yaranmasından 28 il ötür.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub, Daxili Qoşunların şəhid hərbi qulluqçularının abidəsi ziyarət olunub.

Martın 12-də Daxili Qoşunların Baş İdarəsində növbəti ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bu günü barədə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə Qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün - 1992-ci ilin 12 mart tarixi Azərbaycan Respublikasının Daxili Qoşunları Günü elan olunub.

Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü bildirib. Hərbi qulluqçulardan 9 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldüyü qeyd edilib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev Daxili Qoşunların yaranmasının 28-ci ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, dövlət başçısının səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, çıxışında təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilən, yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini vurğulayıb.

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Nazir Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin müasir standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib.

V.Eyvazov qeyd edib ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, ölkəmizdə keçirilən I Avropa, IV İslam Həmrəyliyi oyunları, "Formula-1" Azərbaycan Qran-Prisi yarışları kimi mötəbər beynəlxalq idman və digər mədəni-kütləvi tədbirlər zamanı, eləcə də təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, Prezident İlham Əliyevin martın 11-də imzaladığı müvafiq sərəncamları ilə daha 18 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

General-polkovnik Vilayət Eyvazov əminliklə bildirib ki, Daxili Qoşunların bütün şəxsi heyəti respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında bundan sonra da səy və bacarığını əsirgəməyəcək.

Sonra əlamətdar gün münasibətilə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə Daxili İşlər nazirinin və nazir müavini - Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunub və mükafatlar təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

# Azərbaycan-Türkmənistan əməkdaşlığının müasir mərhələdə perspektivləri müəyyən edildi

*Əvvəli 1-ci səh.*



Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında imzalanan Protokol Xəzər dənizinin bioloji müxtəlifliyinin öyrənilməsi və mühafizəsi sahəsində əməkdaşlığa geniş yol açır. Türkmənistanın həmin nazirliyi ilə respublikamızın İqtisadiyyat Nazirliyi arasında isə torpaq kadastrı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Azərbaycanın İqtisadiyyat Nazirliyinin və Türkmənistanın Maliyyə və İqtisadiyyat Nazirliyinin imza atdıqları Anlaşma Memorandumu dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dairdir. Daha bir sənəd respublikamızın İxracın və İnvestisiyaların Təşviqi Fondu və Türkmənistanın Ticarət-Sənaye Palatası arasında imzalanan Anlaşma Memorandumudur. Eləcə də Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu imzalanıb.

Daha bir sənədlə 2008-ci il mayın 19-da Azərbaycan və Türkmənistan hökumətləri arasında beynəlxalq avtomobil əlaqələri haqqında Sazişə əlavə və dəyişikliklər edildi.

Bunlar imzalanan sənədlərin yalnız bir qismidir. Digər ikitərəfli sənədlərin imzalanması mühafizə-hüquq bazasının genişlənməsinə xidmət edən mühüm addımlar kimi dəyərlidir. Azərbaycan və Türkmənistan xalqları ortaq etnik kökə, mədəniyyətə və ənənələrə malik olduqlarından ədəbiyyat, kinematoqrafiya, radio və televiziya verilişləri, kitabxana və s. sahələr üzrə imzalanmış sənədlər də böyük önəm daşıyır.

Azərbaycan və Türkmənistan beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu təsisatlarla sıx əməkdaşlıq edirlər. Bu iki ölkə daim bir-birinin təşəbbüslərini dəstəkləyir. Azərbaycanla Türkmənistanın bir-birinə dəstəyi özünü həm ikitərəfli, həm də çoxtərəfli formatda göstərir. Azərbaycan və Türkmənistan prezidentlərinin qarşılıqlı səfərləri həyata keçirilir. Keçən il dövlət başçıları həm Bakıda, həm də Aşqabadda görüşmüşlər. Prezident İlham Əliyevin 2018-ci ildə Türkmənistana səfəri zamanı 20-dən çox ikitərəfli sənəd imzalanmışdı. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə budəfəki səfəri zamanı daha 20-yə yaxın sənədin imzalanması əməkdaşlığın strateji inkişafına sadiqliyi təsdiq edir. İki səfər zamanı imzalanan sənədlər indiyədək Azərbaycan və Türkmənistan arasında imzalanmış sənədlərin təxminən yarısı qədərdir. Bu da son illərdə ölkələrimizin müqavilə-hüquq bazasının möhkəmlənməsi baxımından böyük yol keçdiyini göstərir. Bu dəfə imzalanmış sənədlər arasında dövlət başçılarının Birgə Bəyanatı xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu sənəddə bizim niyyətlərimiz, dünyada, regionda vəziyyətə verdiyimiz qiymət və gələcəyə istiqamətlənməyimiz öz əksini tapıb. Mən, həmçinin hesab edirəm ki, Birgə Bəyanatın mühüm bəndlərindən biri ölkələrimizin ərazi bütövlüyünün, sərhədlərinin və suverenliyinin toxunulmazlığının bir daha dəstəklənməsi, eləcə də münaqişələrin beynəlxalq hüququn prinsipləri və ərazi bütövlüyü, sərhədlərin və suverenliyin toxunulmazlığı prinsipləri əsasında həllidir".

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov da Azərbaycana səfəri zamanı imzalanan sənədləri, keçirilən görüşləri və aparılan söhbətləri yüksək dəyərləndirərək demişdir: "Adətimiz üzrə biz dövlətlər arasında dialoqun davam etdirilməsi kontekstində çox məsələləri nəzərdən keçirdik, yəni bizim indiki vəziyyətimizi və perspektivləri müəyyən etdik. Biz müasir mərhələdə siyasi, iqtisadi, mədəni-humanitar sahələrə aid məsələləri də nəzərdən keçirdik. Siyasət məsələlərinə gəldikdə, vurğulamaq istərdim ki, Azərbaycan regionda Türkmənistan üçün strateji tərəfdaşdır. Bunu bir daha vurğulayıram. Yəni bizim mövqelərimiz çox cəhətdən oxşardır. Biz bütün dünyada və regionda, - mən Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionunu nəzərdə tuturam, - sabitliyin və təhlükəsizliyin tərəfdarıyıq".

Prezidentlər ölkələrimiz arasında əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduqlarını ifadə ediblər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi Bərdə və Ağdaş rayonlarının sakinlərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2020-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov martın 12-də Bərdədə Tərtər, Yevlax, Zərdab və Bərdə rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Xidmət rəisi, general-leytenant Arzu Rəhimov və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbulda hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Həmin gün Dövlət xidməti rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Ağdaşda Göyçay, Ucar və Ağdaş rayonlarından olan vətəndaşları qəbul edib.

Dövlət xidməti rəhbərliyinin keçirdiyi qəbullarda 32 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşların müraciətləri əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb edilmə, şəhid statusunun, veteran adı və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Dövlət xidmətinin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Hökumətin bütün variantlar üçün tədbirlər planı var

Xəbər verildiyi kimi, neft bazarında qiymətlərin kəskin ucuzlaşması və koronavirusun təsirindən yaranmış qlobal böhranın Azərbaycana olan təsirlərini azaltmaq üçün Prezident İlham Əliyevin tapşırığı əsasında Azərbaycan hökuməti əsas siyasət istiqamətlərini müəyyənləşdirib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bununla bağlı bildirib ki, hökumətin tədbirlərini iki qrupda təsnifləndirmək olar: "Birinci, koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması, ikinci isə, qlobal iqtisadi böhranın Azərbaycana təsirlərinin azaldılması. İlk növbədə, Nazirlər Kabinetinin yanında operativ qərargah Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması üçün fəaliyyət göstərir. Nazirlər Kabineti bunun üçün tədbirlər planı təsdiq edib, koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə Dünya Səhiyyə Təşkilatı ilə birgə intensiv iş aparılır. İqtisadi tədbirlərin başında isə valyuta bazarında tələb-təklifin tənzimlənməsi, manatın sabitliyinin qorunması, inflyasiyanın nəzarətdə saxlanılması və bazarlarda spekulyasiyalara yol verilməməsi dayanır".

Əmanətlərin tam sığortalanması məsələsinin də yaxın günlərdə həll olunacağını deyən V.Qasımlı Mərkəzi Bankda Dövlət Neft Fondunun iştirakı ilə keçirilən valyuta hərraclarında bu həftə ərzində bazarın tələbini tam ödəyəcək məbləğdə valyuta satıldığını diqqətə çatdırıb. "Manatın sabitliyinin qorunması 2019-cu ildə həyata keçirilən inqilabi sosial islahatların nəticələrinin daha da möhkəmləndirilməsi üçün zəmindir. Azərbaycan hökuməti tərəfindən dövlət büdcəsinin icrasının tam həyata keçirilməsi, xərclərin optimallaşdırılması və səmərəli istifadəsi istiqamətində tapşırıqlar müəyyənləşdirilib", - deyə o bildirib.

Xüsusilə sosial proqramların icrasının nəzarətə götürüldüyünü qeyd edən icraçı direktor ünvanlı sosial yardım, ictimai işlər, özünüməşğulluq, kirayə mənzil, icbari tibbi sığorta, sosial ipoteka kimi sosial layihələrin tam icra ediləcəyini vurğulayıb. "Bu il dövlət büdcəsinin sosialyönlü xərcləri 10,4 milyard manat proqnozlaşdırılır ki, bu da ötən illə müqayisədə 2,6 milyard manat və ya 33,5 faiz çoxdur. Prezidentin tövsiyəsinə uyğun olaraq, özəl sektor da mövcud iş yerlərinin saxlanılması və yeni iş yerlərinin açılmasında fəal olmalıdır", - deyən V.Qasımlı bildirib ki, dövlət başçısının tapşırığına əsasən, kiçik və orta sahibkarlığın daha geniş miqyasda dəstəklənməsi və ölkədə sərmayə qoyuluşunun artırılması istiqamətindəki tədbirlər xüsusi olaraq iqtisadi artımın dayanıqlığının təmin edilməsinə hesablanıb. "Bu ilin ilk iki ayında əsas kapitala yönəldilən vəsaitlər 12,7 faiz artıb və hökumət bu tempin saxlanılmasına çalışacaq. Hökumətin tədbirləri sırasına qlobal böhranın təsirindən daha çox ziyan çəkmiş sahələrin dəstəklənməsi də daxildir", - deyə o vurğulayıb.

Neftdən sonra ölkəyə ən çox gəlir gətirən turizm sektorunun dəstəklənməsinin gündəlikdə olduğunu deyən V.Qasımlı iqtisadiyyat üçün sistem əhəmiyyətli müəssisələrin dayanıqlığının təmin olunacağını qeyd edib. İcraçı direktor daha sonra bildirib: "Neftin qiymətlərinin tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb ki, bu sahədə görülən tədbirlər tədiyə balansının tarazlığının qorunmasını təmin edəcəkdir. Hökumətin antiböhran tədbirlərinin səmərəliyinin artırılması üçün özəl sektor, vətəndaş cəmiyyəti və beynəlxalq qurumlarla əməkdaşlıq da gündəmdədir".



## Qəri Counz: "Prezident İlham Əliyevin dəstəyi "Şahdəniz-2"nin həyata keçirilməsində başlıca amil olub"

Çəkilişi başa çatmaqda olan "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağıdır. Odur ki, bu layihənin gerçəkləşməsində "Şahdəniz-2"də hasilata başlanması başlıca amil oldu.

Təsadüfi deyil ki, "Cənub qaz dəhlizi"nin ötən ayın 28-də Bakıda keçirilən Məşvərət Şurasının VI toplantısında bu, bir daha vurğulanmışdır. Qeyd edilmişdir ki, "Şahdəniz-2" dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb layihələrdən biridir.

Xatırladaq ki, "Şahdəniz" yatağı Xəzərin Azərbaycan sektorunda sahildən 70 kilometr aralıda yerləşir. Yataq 1999-cu ildə kəşf olunub. Onun yerləşdiyi ərazidə suyun dərinliyi şimal-qərbdə 50 metrə, cənub-qərbdə 600 metrə çatır.

"Şahdəniz" təxminən 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan çox kondensat ehtiyatlarına malik nəhəng yataqdır. İşlənməsi iki mərhələdə həyata keçirilir. Yataqda ilk qaz ("Şahdəniz-1") 14 il əvvəl çıxarılıb.

Keçən il "Şahdəniz" yatağında ümumilikdə 16,8 milyard standart kubmetr qaz və təqribən 3,5 milyon ton (28,6 milyon barel) kondensat hasil edilmişdir. "Şahdəniz Bravo" platformasından ("Şahdəniz-2") 2018-ci ilin ortalarında ilk qaz əldə olunmuşdur və o vaxtdan bəri hasilat tədricən artmaqdadır.

"Cənub qaz dəhlizi"nin BP-nin operatorluq etdiyi iki hissəsində - "Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi layihələrində işlərin əksəriyyəti tamamlanıb. Bəzi işlər isə hələ bir neçə il davam edəcək.

Məşvərət Şurasında BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bildirib ki, "Şahdəniz-2"nin əsas nəhəng qurğusunun, eləcə də dənizdə və quruda yerləşən digər qurğularının yekun təhvil-təslimi yekunlaşıb.

Bu layihə üzrə iki qaz ixrac xətti və bir kondensat xətti vasitəsilə ixrac həyata keçirilir.

"Şahdəniz-2"də quyuların qazılması proqramında mühüm irəliləyişə nail olunub. Hazırda işlər qrafiki iki il qabaqlayır. Nəzərdə tutulan 26 quyudan 17-si qazılıb və onların 16-sı tamamlanıb.

Xatırladaq ki, "Şahdəniz-2"də quyular ayrı-ayrı cinahlarda qazılır. Yatağın şimal və qərb cinahlarındakı 8 quyunun hamısı uğurla işə salınıb. Hasilat üzrə birinci ilin planı yerinə yetirilib. Bu işlərə dünya səviyyəli Xəzər Donanması yüksək dəstək göstərib.

"Şahdəniz-2"də quyuların qazılması və tamamlanması 2025-ci ilədək çəkəcək, 2021-ci ildə şərq-cənub, 2022-ci ildə isə qərb-cənub və şərq-şimal cinahları işə salınacaq. Bu istiqamətdə keçən il dənizin dərinliyində avadanlıqların quraşdırılması davam edib. Qaz hasilatını planlaşdırılan sabit səviyyəyə çatdırmaq üçün qarşıdakı illərdə "Xankəndi" gəmisi və "İsrafil Hüseynov" borudüzmə barjı ilə sualtı qurğular daşınıb yataqda quraşdırılacaq.

Qazı Azərbaycanın və Gürcüstanın ərazisi ilə nəql edən genişləndirilmiş CQBK-nın isə bütün qurğuları artıq tamamlanıb və hazırda işlək vəziyyətdədir.

Q.Counz belə irimiqyaslı və mürəkkəb layihələrdə bütün tərəflərin etibarlı və səmərəli şəkildə fəaliyyət göstərməsinin qürurlu fakt olduğunu vurğulayıb. Eləcə də işlərin nəzərdə tutulmuş qrafikə və büdcəyə uyğun irəlilədiyini qeyd edib: "Biz, planlaşdırıldığı kimi, cari ilin sonunadək Avropaya ilk qazın çatdırılması üçün işləri qrafikə uyğun davam etdiririk. Layihə, həmçinin bu region üçün də unikaldır, belə ki, "Cənub qaz dəhlizi" ilk dəfə olaraq Xəzər regionunu birbaşa Avropa bazarlarına birləşdirəcək. Enerji müxtəlifliyini təmin etməkdən əlavə, bu layihə az karbonlu enerjiyə və daha təmiz dünyaya keçid etmək üçün görülən səylərə töhfə verəcək".

Q.Counzun dediyi kimi, "Cənub qaz dəhlizi"nin reallaşması üçün 7 ölkənin və hökumətin, Avropa İttifaqının, ABŞ-ın, bir çox müvafiq beynəlxalq təşkilatların, 4 ölkədəki tərəfdaşlarımızın və 11 alıcının dəstəyi, əməkdaşlığı və uzlaşması tələb olunurdu.

Belə möhtəşəm layihənin təşəbbüskarı və aparıcı qüvvəsi kimi məhz Azərbaycan çıxış etdi. Bunu "Cənub qaz dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən bəri toplantılarının hamısının Bakıda keçirilməsi də təsdiq etdi və tədbirin iştirakçıları da bu faktı vurğuladılar. O cümlədən BP-nin regional prezidenti dedi: "Xüsusilə qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin şəxsi iştirakı və dəstəyi "Şahdəniz-2" layihəsinin uğurla həyata keçirilməsində başlıca amil olub".

***Flora SADIQLI, "Azərbaycan"***

## Tibbi sığorta xidmətləri ilin sonunadək vergidən azad edilib

Vergi Məcəlləsinə əlavə edilmiş 164.1.51-ci maddəyə və "Tibbi sığorta haqqında" qanuna uyğun olaraq, İcbari Tibbi Sığorta Fondunun vəsaiti hesabına tibbi sığorta xidmətlərinin göstərilməsi 2020-ci il yanvarın 1-dən bir il müddətinə ƏDV-dən azad edilib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, tibbi xidmətlər sığortaolunanlara xidmətlər zərfinə uyğun olaraq, icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstərilir. "Tibbi sığorta haqqında" qanunun 1.0.1-ci maddəsinə əsasən xidmətlər zərfi - icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur.

## İki ayda DGK büdcəyə 663,3 milyon manat köçürüb

Cari ilin yanvar-fevral aylarında Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən dövlət büdcəsinə daxilolmalar 663 milyon 306 min manat olub.

DGK-nin yaydığı məlumata görə, iki ayda gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 170 milyon 669 min, əlavə dəyər vergisi üzrə 465 milyon 985 min, aksizlər üzrə 19 milyon 513 min, yol vergisi üzrə isə 7 milyon 136 min manat təşkil edib.

## Qəbələ və Şəmkirdə inşasına başlanan uşaq bərpa mərkəzləri bu il istifadəyə veriləcək

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, uşaq bərpa mərkəzləri şəbəkəsinin ölkəmizin bölgələri üzrə genişləndirilməsi işləri aparılır.

Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Qəbələ və Şəmkir rayonlarında sağlamlıq imkanları məhdud uşaqlar üçün bərpa mərkəzlərinin tikintisinə başlanılıb. Cari ildə tikinti işlərinin başa çatdırılması və mərkəzlərin istifadəyə verilməsi nəzərdə tutulur.

Həmin müəssisələrdə sağlamlıq imkanları məhdud uşaqlara müasir fizioterapiya metodları əsasında kompleks bərpa müalicəsi xidmətləri göstəriləcək, il ərzində 600-dən çox uşaq stasionar və 1000-dək uşaq ambulator şəraitdə reabilitasiya xidmətləri ilə təmin olunacaq.

## İşədüzəltmədə vasitəçilik edən hüquqi şəxslərin vahid reyestri yaradılacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işaxtaranların işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin vahid reyestrini yaradacaq.

"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na əsasən, həmin reyestrin yaradılması 2020-2021-ci illərdə təmin olunacaq.

Reyestr əsasında vahid informasiya bazası yaradıldıqdan sonra işədüzəltmədə vasitəçilik fəaliyyəti həyata keçirən hüquqi şəxslərlə qarşılıqlı məlumat mübadiləsi aparılacaq. Şirkətlər onlara müraciət edən işaxtaran və işsiz şəxslər, eyni zamanda işlə təmin etdikləri şəxslər barədə məlumatları və onlarda olan mövcud vakansiya siyahısını da reyestrə daxil edəcəklər.

## Azərbaycanın növbəti «neft sınağı»ndan da uğurla çıxacağı şübhəsizdir

**Dünya iqtisadiyyatı siyasi və iqtisadi qarşıdurmalar üzündən yenidən böhran vəziyyətinə daxil olmaq üzrədir. 2008-ci il qlobal maliyyə böhranının törətdiyi fəsadlar tam aradan qalxmadığı bir vaxtda yenidən "neft müharibəsi"nin başlanması təhlükəsi yaranıb.**



### Buna ölkəmizin iqtisadi inkişafı və maliyyə dayanıqlığı imkan verir

OPEC üzvləri və qeyri-üzvlərinin, xüsusilə Səudiyyə Ərəbistanı ilə Rusiyanın neftin hasilat həcmi üzrə razılığa gələ bilməmələri mübahisəsinə sonradan İraq, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) də qoşulub. İraq neftinin 1 barelini Asiya ölkələrinə 5 dollar aşağı qiymətə satmağa hazır olduğunu bəyan edib. Küveyt isə ixrac etdiyi neftin qiymətini 6 dollar endirib, üstəlik, BƏƏ də neft hasilatını artıracağını bildirib.

Siyasi ambisiya və iqtisadi maraqlardan qaynaqlanan bu "bəhsəbəs" dünya iqtisadiyyatına mənfi təsir göstərməyə bilməzdi. Baş verəcək zəncirvari reaksiyanın bütün ölkələrin iqtisadiyyatına təsirsiz ötüşməyəcəyi indidən məlumdur. Bu isə investisiya qoyuluşunun azalması, ticarətin, eləcə də istehsalın aşağı düşməsi, iş yerlərinin ixtisarı və s. neqativ hallar deməkdir.

Məlumdur ki, Azərbaycan iqtisadiyyatında neft amili mühüm rol oynayır. Bu səbəbdən neftin qiymətinin aşağı düşməsi, yumşaq desək, ölkəmiz üçün arzuolunan deyil. Amma ortada ölkəmizin 2008-ci ildə baş vermiş qlobal maliyyə böhranından vaxtında görülən tədbirlər sayəsində minimum itki ilə çıxması faktı var. O üzdən Azərbaycanın bu təcrübədən istifadə edərək ehtimal olunan yeni böhranın fəsadlarını minimum səviyyəyə endirəcəyinə şübhə yoxdur.

Nazirlər Kabinetinin martın 11-də qlobal enerji bazarında vəziyyət və onun ölkə iqtisadiyyatına təsirinə dair müşavirəsində də bu məsələlər ətraflı müzakirə olundu, müvafiq tədbirlərin görülməsi qərara alındı. Həmin tədbirdə Baş Nazir Əli Əsədov son günlər dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması ilə bağlı maliyyə-bank sektorunda və əhali arasında narahatlığın yarandığını bildirdi. Qeyd etdi ki, hökumət dünya iqtisadiyyatında baş verən prosesləri daim diqqət mərkəzində saxlayır və qabaqlayıcı rejimdə tədbirlər həyata keçirir.

Müşavirədə vurğulandı ki, həyata keçirilən islahatlar sayəsində bu gün ölkəmizin iqtisadi vəziyyəti dayanıqlıdır. Bank-maliyyə sektoru yarana biləcək böhranın qarşısını almağa qadirdir. Dünyada baş verən mənfi iqtisadi meyillərə baxmayaraq, Azərbaycanın iqtisadiyyatı inkişaf edir, maliyyə imkanları genişlənir. Prezidentin vurğuladığı kimi, ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur.

Baş Nazir ölkə iqtisadiyyatının dinamik inkişaf etdiyini bildirərək onu da qeyd etdi ki, cari ilin ilk ayları ölkə iqtisadiyyatı üçün uğurlu olub. Bu ilin yanvar-fevral aylarında ÜDM istehsalı ölkə üzrə 2,8, o cümlədən qeyri-neft sektorunda 6,7 faiz artıb. İnflyasiya isə ən aşağı səviyyədə - 2,8 faizdir.

Müşavirədə çıxış edən Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar son günlər valyuta bazarında hiss olunan gərginlik və bu sahədəki mövcud vəziyyət barədə məlumat verdi. Vurğuladı ki, dünya bazarında neftin qiymətinin qısa müddətdə kəskin aşağı düşməsi ölkəmizin nə ticarət, nə də tədiyə balansına əhəmiyyətli təsir göstərib.

Elman Rüstəmov "Xarici valyuta satışı ilə bağlı hər hansı məhdudiyyətlər tətbiq olunurmu" və "Mənfi təsirləri neytrallaşdırmaq üçün hansı imkanlar var" suallarını cavablandırarkən bildirdi ki, bu cür hallarda valyuta hərraclarında, bazarda valyutaya ehtiyac artır. Bu tələbatı ödəmək üçün Mərkəzi Bank martın 10-da hərrac keçirib. 11-də isə növbədənkənar hərrac keçirildi. Hər iki hərracda bazarın bütün tələbatı tam şəkildə ödənilib. Bununla yanaşı, ölkəyə əvvəlcədən kifayət qədər nağd valyuta gətirilib, bankların nağd və qeyri-nağd valyutaya olan bütün tələbatları tam ödənilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov isə bildirdi ki, ölkə iqtisadiyyatının dinamik inkişafı sayəsində ilin əvvəlindən bir sıra uğurlara nail olunub. Belə ki, qeyri-neft sənayesində istehsal 21,7 faiz artıb. Qeyri-neft sektoruna investisiya qoyuluşlarının artımı isə 21 faizə çatıb. Həmçinin əhalinin pul gəlirlərinin nominal artım tempi 5,1 faizdən 8,9 faizə yüksəlib.

Nazir mövcud inkişafımızı yüksək qiymətləndirərək bildirdi: "İqtisadiyyatımızın istənilən xarici şoklara qarşı güclü maliyyə ümmuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. Strateji valyuta ehtiyatlarının həcmi ümumi daxili məhsulun 100 faizini ötür, xarici dövlət borcunun həcmini 6 dəfə üstələyir. Ehtiyatların həcmi üçillik mal və xidmətlərin fasiləsiz maliyyələşdirilməsi üçün yetərlidir. Yəni strateji valyuta ehtiyatları dövriyyədə olan bütün manat kütləsinin həcmindən 5, nağd manat kütləsinin həcmindən isə 9 dəfə çoxdur. Bu da valyuta bazarının tarazlığının təmin olunması və makroiqtisadi sabitliyin qorunmasının fundamental şərtidir".

***Rüstəm KAMAL, "Azərbaycan"***

## "Beynəlxalq magistr dərəcəsini Azərbaycana gətiririk"

Yeni layihə Azərbaycanda kompüter elmləri və data analitikası üzrə potensialın inkişafına xidmət edəcək. Layihə çərçivəsində Azərbaycan tələbələri Corc Vaşinqton Universitetindən magistr dərəcəsi almaq imkanı qazanacaqlar. Eləcə də ADA Universiteti ilə Corc Vaşinqton Universiteti arasında sıx əməkdaşlıq yaradılacaq.

BP, onun "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları (SOCAR, TPAO, "PETRONAS", "Chevron", "LUKOİL", NİCO, "Equinor", "İNPEX", "ExxonMobil", "SGC", "İTOCHU", "ONGC", "TOTAL", "Eni") və ADA Universiteti Kompüter Elmləri və Data Analitikası üzrə yeni magistr proqramının fəaliyyətə başladığını elan ediblər. Layihə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə sıx əməkdaşlıqda həyata keçiriləcək.

Bu, Azərbaycanın ADA Universiteti və ABŞ-ın Corc Vaşinqton Universiteti tərəfindən birgə hazırlanmış ikili proqramdır. Proqramın məzunları hər iki universitetdən dərəcə alacaqlar.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyir: "Bu, Azərbaycanda ilk dəfə olaraq kompüter elmləri və data analitikası üzrə elmi dərəcə verən proqram olacaq. Bir neçə il bundan əvvəl BP və tərəfdaşları ADA Universitetində Data Analizi üzrə Tədqiqat Mərkəzinin (CeDAR) yaradılmasına dəstək vermişdi. Bu dəstəyin məqsədi ADA universitetinin ölkədə data analitikası üzrə yüksək keyfiyyətli kadrlar, alimlər və mühəndislər tələb edəcək yeni sektorun inkişafına yönəlmiş təşəbbüsünə imkan yaratmaq idi. Ümid edirik ki, BP və tərəfdaşlarının maliyyələşdirəcəyi bu yeni magistr proqramı data analitikası üzrə potensialın inkişaf etdirilməsinə təkan verəcək".

Proqram beş semestr tədris olunacaq və bunun üç semestri Bakıda, iki semestri isə Vaşinqtonda keçiriləcək. Vaşinqtondakı dərslər Corc Vaşinqton Universitetində Mühəndislik və Tətbiqi Elmlər Məktəbinin (SEAS) dünya səviyyəli auditoriyalarında aparılacaq.

Bütün iştirakçıların təhsil haqları və digər xərcləri proqram tərəfindən maliyyələşəcək. Layihənin dəyəri təxminən 6 milyon AZN-dir və bunun təxminən 3,4 milyon AZN-ni BP və onun əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları ödəyəcək. Proqram üzrə dərslər 2020-ci akademik ilində başlayacaq.

## Keçən il ölkədə 5,7 min tondan çox bal istehsal olunub

Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən il ölkədə 31 min 41 təsərrüfatda mövcud olan 542,8 min arı ailəsindən 5781,3 ton bal, 156,1 ton mum, 15,8 ton vərəmum, 14,1 ton güləm və 609,7 kq arı südü əldə edilmişdir.



Balın 1 kiloqramının orta satış qiyməti 25,1, mumun - 13, vərəmumun - 129,5, güləmin - 77,7, arı südünün 1 qramının orta satış qiyməti isə 4,1 manat olmuşdur.

Məlumatda daha sonra bildirilir ki, 2017-ci illə müqayisədə 2019-cu ildə arı ailələrinin sayı 271,1 min, bal istehsalı 2738,2 ton artmışdır. Ümumiyyətlə, "Arıçılıq haqqında" qanunun qəbul edildiyi dövrdən sonrakı 11 ildə bal istehsalı 4,1, arı ailələrinin sayı 3,8 dəfə, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı isə 11,1-dən 17,5-dək artmışdır. Eyni zamanda arıçılığın inkişafı kənd yerlərində məşğulluğun təmin edilməsi və əhalinin gəlirlərinin artımı baxımından mühüm əhəmiyyət kəsb edir.

# ADA Universitetinin Corc Vaşinqton Universiteti ilə birgə magistr proqramının təqdimatı olub



Martın 12-də ADA Universitetinin ABŞ-ın Corc Vaşinqton Universiteti ilə birgə Kompüter elmləri və Data analitikası üzrə yeni magistr proqramının təqdimatı olub. Bu proqram universitetlər arasında daha əvvəl imzalanmış akademik tərəfdaşlıq haqqında müqaviləyə əsasən həyata keçirilir.

Tədbir zamanı ADA Universiteti ilə BP Azərbaycan arasında imzalanmış müqavilələr də təqdim edilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov beynəlxalq ikili diplom proqramının əhəmiyyətini vurğulayıb. Nazir bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində ikili diplom proqramının maliyyələşdirilməsi və həyata keçirilməsi planlaşdırılır. İkili diplom proqramı Kompüter elmləri və Data analitikası üzrə mütəxəssislərin hazırlanmasını nəzərdə tutur.

Ceyhun Bayramov qeyd edib ki, Corc Vaşinqton Universitetinin tədris planı əsasında həyata keçiriləcək proqramın məzunları Kompüter elmləri və Data analitikası sahəsində bilik və bacarıqlara yiyələnəcəklər.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev beynəlxalq ikili diplom proqramı sahəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Rektor qeyd edib ki, ADA Universiteti və ABŞ-ın Corc Vaşinqton Universiteti birgə akademik əməkdaşlıq haqqında razılaşma çərçivəsində Bakıda və Vaşinqtonda tədris olunan birgə proqramlar həyata keçirəcək, pedaqoji heyətin inkişafı üzrə əməkdaşlıq edəcək və tədqiqat layihələri aparacaq. ABŞ-dakı təhsil müddəti ərzində tələbələr Corc Vaşinqton Universitetinin Mühəndislik və Tətbiqi Elmlər Məktəbinin müasir laboratoriya və tədqiqat mərkəzlərindən faydalanmaq imkanı əldə edəcəklər.

ADA Universiteti və Təhsil Nazirliyi arasında əlaqələrin daha da inkişaf edəcəyini bildirən rektor bu sahədə həyata keçirilən layihələr və perspektiv planlardan da danışıb.

BP-nin Azərbaycan, Türkiyə və Gürcüstan üzrə regional prezidenti Qəri Cons bildirib ki, ADA Universiteti və ABŞ-ın Corc Vaşinqton Universiteti arasında Kompüter elmləri və Data analitikası üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramına dəstək verməkdən böyük məmnunluq duyur. Bu proqram çərçivəsində Azərbaycanda ilk dəfə olaraq Kompüter elmləri və Data analitikası üzrə elmi dərəcə veriləcək. Bir neçə il əvvəl BP və tərəfdaşları ADA Universitetində “Data Analizi üzrə Tədqiqat Mərkəzi”nin (CeDAR) yaradılmasına dəstək verib. Bundan məqsəd ölkədə Data analitikası üzrə yüksək səviyyəli kadrlar, alim və mühəndislər tələb edəcək yeni sektorun inkişafına təkan verməkdir. Ümidvarıq ki, bu yeni magistr proqramı Data analitikası üzrə potensialın inkişaf etdirilməsinə təkan verəcək.

ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Təhsildə mübadilə və əməkdaşlıq layihələrinin çox faydalı olduğunu vurğulayan səfir qeyd edib ki, beynəlxalq proqramlar vasitəsilə hər iki ölkədən olan tələbələr təcrübə və biliklərini paylaşaraq Azərbaycanın iqtisadiyyatının inkişafı üçün birgə işləmək imkanını əldə edirlər.

Tədbirdə ADA Universitetinin İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutunun dekanı Araz Yusubov yeni proqramla bağlı təqdimat edib.

Proqram çərçivəsində 2020-2021-ci tədris ilindən etibarən ADA Universitetində magistratura səviyyəsinə qəbul aparılacaq. Magistratura səviyyəsində təhsilin 5 semestrinin 3-ü Bakıda, 2-si isə Vaşinqtonda təşkil ediləcək. Sonda məzunlara həm ADA Universitetinin, həm də Corc Vaşinqton Universitetinin diplomları veriləcək. Beynəlxalq ikili diplom proqramı “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində ümumilikdə dövlət tərəfindən, qismən isə BP tərəfindən maliyyələşdiriləcək.

Maraqlanan namizədlər əlavə məlumat üçün ada.edu.az/csda veb-səhifəsinə daxil olmaqla, **csda@ada.edu.az** elektron ünvanına məktub yazmaqla və ya (+99450) 274 95 52 nömrəsinə zəng etməklə qəbul şöbəsi ilə əlaqə saxlaya bilərlər.

# Azərbaycanın Rus İcması Rusiyanın baş prokuroruna müraciət edib

Azərbaycanın Rus İcması “Tsarqrad” telekanalının saytında dərc edilmiş təhrikçi xarakterli məqalə ilə əlaqədar Rusiya Federasiyasının baş prokuroru İqor Krasnova müraciət edib.

AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir: “Hörmətli İqor Viktoroviç! Azərbaycanın rus icması “Tsarqrad” telekanalının saytında dərc edilmiş “Ruslar, getməyin, bizə kölələr və fahişələr lazımdır!” sərlövhəli məqalənin müəllifi Vladimir Xomyakovun Azərbaycan və rus xalqları arasında etnoslararası münaqişəyə təhrik etmək, düşmənçilik və nifrət hissi oyatmaq cəhdlərini qətiyyətlə pisləyir. Məqalə etnoslararası münaqişəni qızışdırmağa təhrik etməklə bərabər, tarixi tamamilə təhrif edir, faktları və hadisələri saxtalaşdırır. Hər şeydən əlavə, bu məqalə fevralın 26-da, Azərbaycanın Xocalı şəhərində azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsinin ildönümü günündə dərc edilib. 1992-ci ilin həmin günündə erməni silahlıları bir gecədə Xocalının 613 günahsız sakinini - qocaları, qadınları və uşaqları qəddarlıqla qətlə yetiriblər.

Mən rusam. Həmin dövrdə Bakı şəhərinin Nizami rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışırdım və 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş hadisələr mənə çoxlarından daha artıq tanışdır. Mənim maşınım dəfələrlə, özü də “silahlılar” tərəfindən deyil, sovet ordusunun hərbi qulluqçuları tərəfindən atəşə tutulmuşdu.

Məqalənin müəllifi Xomyakovun yazdıqları yalan, böhtan, faktların təhrif edilməsidir.

Xomyakov Bakının adi vətəndaşlarını “silahlılar” adlandırır, lakin içərisində insanlar olan maşınları tanklarla əzən, şəhərin adi vətəndaşlarını güllələyən həmin “silahlılar” deyil, sovet döyüşçüləri idi.

Həmin döyüşçülər tərəfindən qətlə yetirilənlər arasında ruslar, yəhudilər, digər millətlərə mənsub şəxslər də vardı. Təcili yardım maşınının həkimi həlak olub, uşaqlar həlak olub, gənc ər-arvad Allahverdiyevlər, Vera Bessantina, Boris Yefimçev, Vladimir Tokayev, Valeri Boqdanov, Vladimir Semyonov, Aleksandr Marxevka, Oleq Yusupov, Yan Meyeroviç, Andrey Nişşenko və başqaları atəşə tutularaq həlak olublar.

Vladimir Xomyakov bu adamları da “silahlılar” sayır? Həmin günlərdə bütün Azərbaycan xalqı - azərbaycanlılar, ruslar, yəhudilər, ukraynalılar və digərləri ümid edirdilər ki, SSRİ-nin rəhbəri ədalətli qərar qəbul edəcək, Ermənistanda yaşayan, heç bir təqsiri olmayan azərbaycanlıları qətlə yetirmiş, 300 mindən çox azərbaycanlını Ermənistandan qovmuş erməni millətçilərin azğın hərəkətlərinə son qoyacaq.

Məhz erməni millətçilərinin bu cür hərəkətləri Bakı və Sumqayıt şəhərlərinin hiddətlənmiş sakinlərini provokasiyaya sövq edir, Ermənistandan üzgün halda qaçmış azərbaycanlıların üz tutduğu Bakıda çoxsaylı mitinqlər keçirilirdi.

Məqalənin müəllifi Xomyakov XVII-XVIII əsrlərdə Azərbaycan dövlətinin, yoxsa ayrı-ayrı xanlıqların mövcud olması barədə də nahaq mühakimə yürüdür. Vaxtilə Rusiyada da knyazlıqlar mövcud idi və onlar öz aralarında vuruşurdular.

Mən tam məsuliyyətlə bəyan edə bilərəm ki, Xomyakov həmin günlərdə guya rusların döyülməsi, öldürülməsi, küçələrdə əllərində “Ruslar, getməyin, bizə kölələr və fahişələr lazımdır!” sözləri yazılmış plakatlar olan izdiham barədə dedikləri doğru deyil (bunu yalan adlandırmaq istəmirəm).

Həmin günlərdə mən Xalq Cəbhəsinin liderləri ilə dəfələrlə görüşmüşəm və onlar həqiqətən məndən xahiş ediblər ki, rus əhali ilə görüşlər keçirilməsinə kömək edim. Belə görüşlər keçirildi. Rusların nəinki öldürülməsi, hətta döyülməsi ilə bağlı heç bir fakt olmayıb.

1993-cü ildə xalqın təkidli çağırışı ilə hakimiyyətə gəlmiş Ümummilli Lider Heydər Əliyev ölkədə özbaşınalığı və hərc-mərcliyi dayandırdı, Milad bayramı günlərində (1994-cü il yanvarın 10-da) rus əhali qarşısında çıxış etdi və onlarda özlərinin və uşaqlarının Azərbaycan Respublikasında gələcəyinə inam hissi yaratdı.

Azərbaycan həmişə çoxmillətli ölkə olub, ölkə ərazisində yaşayan bütün millətlərin, bütün xalqların hüquqlarına və ləyaqətinə hörmətə zəmanət vermək bacarığı ilə məşhur olub.

Multikulturalizm, həmrəylik, çoxkonfessiyalılıq - bu sözlər çoxdan Azərbaycanın sərvətinə çevrilib. Etnik müxtəliflikli ölkədə müxtəlif etnik qrupların dinc yanaşı yaşaması üçün hər cür şərait yaradılır, hər kəsin hüquqlarının müdafiəsi təmin edilir.

Azərbaycanın rus diasporu müasir Rusiyanın hüdudlarından kənarda rusların ən iri diasporlarından biridir. Bu gün Azərbaycanda 120 mindən çox etnik rus vətəndaş yaşayır. Onlar həmişə özlərini Azərbaycan Respublikasının tamhüquqlu vətəndaşları hesab ediblər. Üstəlik, qonşu Ermənistanla çoxdan davam edən münaqişəyə baxmayaraq, bu gün Azərbaycanda on mindən çox erməni yaşayır.

Ruslar özlərinə səmimi və xoş münasibəti görəndən sonra azərbaycanlılarla çiyin-çiyinə erməni işğalçılara qarşı birləşib və Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməyə başlayanda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda vuruşublar. 90-cı illərin əvvəlində Qarabağ müharibəsi dövründə onların çoxu həlak olub. Bu gün biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyov, İqor Makeyev və Azərbaycanın çoxsaylı digər etnik rus vətəndaşları Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruşub, orden və medallarla təltif ediliblər.

Biz, Azərbaycanda yaşayan ruslar məqalə müəllifinin yazdığı kimi özümüzü “repressiyaya məruz qalmış xalq” hesab etmirik və xüsusən Vladimir Xomyakov kimilərin bizi müdafiə etməsinə ehtiyacımız yoxdur.

Biz öz doğma rus dilimizdə sərbəst danışırıq, uşaqlarımız rus məktəblərinə gedir, ali məktəblərdə rus dilində oxuyurlar. Rus dilində kitablar, jurnallar və qəzetlər oxuyur, telekanallara baxırıq.

Bu gün Vladimir Xomyakovun məqaləsini oxuyanda görürük ki, bu, tarixin qəsdən təhrif edilməsi, dezinformasiya və ilk növbədə, hər iki xalqa təhqirdir. “Tsarqrad” telekanalının saytında yerləşdirilmiş məqalə həqiqəti əks etdirmir. Jurnalist öz fikirlərini obyektiv şərh etməli, bu zaman mötəbər mənbələrə istinad etməlidir. İndiki halda aşkar görünür ki, V.Xomyakovun məqaləsi sifarişlə yazılıb, bilərəkdən etnoslararası münaqişənin qızışdırılmasına yönəlib və buna görə cinayət məsuliyyəti doğurur.

Azərbaycanın Rus İcması sizdən dönə-dönə xahiş edir ki, bu provokasiyaya ciddi diqqət yetirəsiniz, Rusiya Cinayət Məcəlləsinin 282-ci maddəsinin və “İnformasiya, informasiya texnologiyaları və informasiyanın qorunması haqqında” 27 iyul 2006-cı il tarixli Federal Qanunun 10.6-cı maddəsinin tələblərinin pozulması baxımından müvafiq yoxlama aparasınız və məqalə müəllifi Vladimir Xomyakovu məsuliyyətə cəlb edəsiniz.

*Azərbaycanın rus icmasının üzvləri adından,*

***Mixail ZABELİN,***
***Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanın Rus İcmasının sədri”***

# Londonun 20 illik təcrübəsini Bakı 8 aya mənimsədi

## Britaniyalı mütəxəssis paytaxtımızdakı ekoloji layihənin gedişini yüksək qiymətləndirdi

Artıq 8 aydan çoxdur ki, paytaxtın Nərimanov rayonunda Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Böyük Britaniyanın Mott MacDonald şirkəti ilə birgə hazırladığı yeni pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsinin icrası həyata keçirilir.





Görülən işlərin yüksək səviyyədə aparılması nəticəsində keçən müddət ərzində irəliləyişlər əldə olunub. Nərimanov rayonunda bu istiqamətdə xeyli iş görülüb, tələbata uyğun miqdarda konteyner meydançası yaradılıb, yeni, müasir konteynerlər yerləşdirilib, sakinlər arasında lazımi maarifləndirici işlər aparılıb.

Nərimanov rayonundakı işlərin müvəffəqiyyəti layihənin artıq digər rayonlara tətbiq edilməsinə şərait yaradıb. Layihənin növbəti mərhələsinə keçidlə bağlı Mott MacDonald şirkətinin rəhbərliyinin səlahiyyətli nümayəndəsi, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahahlar konsepsiyasının rəhbərlərindən biri Devid Dray paytaxtımıza gəlmişdir. Bakı Şəhər İcra Hakimiyyətində keçirilən görüşdə layihənin birinci mərhələsinin yekunları, bu il üçün görüləcək işlər, növbəti 2 və sonrakı illər üçün nəzərdə tutulan konsepsiya və digər suallar müzakirə olunmuşdur. Görüşdən sonra Devid Dray Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Monitorinq Mərkəzində mətbuat nümayəndələrinə bu barədə məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

Devid Dray bildirmişdir ki, layihənin icrasına Bakı şəhərində sıfır mərhələdən başlanmasına baxmayaraq, əldə olunan ilkin nəticələri uğurlu saymaq olar. Bakı son illərdə xeyli inkişaf edib, əhalisinin sayı artıb. Onun böyük əraziyə malik olmasına baxmayaraq, şəhər çox təmizdir. Əsas məsələ bu təmizliyi qoruyub işləri inkişaf etdirməkdir.

Qonaq müqayisə üçün qeyd etmişdir ki, Birləşmiş Krallığın paytaxtı London şəhərində 20 ildən çox müddətdə icra edilən layihədə təkrar emal üçün çeşidlənən tullantıların həcmi 40 faiz olub. Bakının Nərimanov rayonunda isə 8 ay ərzində bu istiqamətdə görülən işlər nəticəsində bu rəqəm 26-35 faiz olaraq son vaxtlarda 40 faizə çatmış, kağız və karton tullantıları 25 faiz olmuşdur ki, bu da çox yaxşı nailiyyət sayılmalıdır. Əgər layihənin icrasının ilk vaxtlarında gündəlik olaraq 6-7 ton təkrar emala gedən tullantı yığılırdısa, hazırda bu rəqəm 22-24 tona çatıb. Bu ilin aprelindən mərhələli qaydada daha 3 rayonun - Nizami, Nəsimi, Yasamal və sonrakı illərdə isə digər rayonların da mərhələli şəkildə bu layihəyə cəlb olunması nəzərdə tutulur.

Eyni zamanda bir sıra çatışmazlıqlar da mövcuddur. Bu bəzi sakinlərin laqeydliyi, tullantıları hara gəldi atması ilə bağlıdır ki, onları da geniş maarifləndirmə və izahetmə işləri ilə aradan qaldırmaq olar. Həmçinin çeşidlənmiş tullantıların oğurlanaraq müxtəlif qəbul məntəqələrinə təhvil verilməsi halları da qeydə alınıb ki, bu məsələlər də hüquq-mühafizə orqanlarının nəzərinə çatdırılıb.

Bildirildi ki, bu işlərin uğurla həyata keçirilməsi Bakı şəhərini aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdıracaq, ətraf mühitə böyük müsbət təsir göstərərək həm də Bakı şəhəri üçün iqtisadi faydalar verəcəkdir.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

*Operativ qərargah:*

# Azərbaycan-İran sərhədinin bağlı saxlanılmasına dair qərarın müddəti daha iki həftə uzadılıb

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğu nəzərə alınaraq, Azərbaycan Respublikası ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə İran İslam Respublikası ilə sərhədin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlı saxlanılmasına dair 2020-ci il 29 fevral tarixli qərarın müddəti daha iki həftə uzadılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

# “ASAN Viza” elektron portalı vasitəsilə vizaların rəsmiləşdirilməsi dayandırılır

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğu nəzərə alınaraq, Azərbaycan Respublikası ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə “ASAN Viza” elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırılır. Azərbaycan Respublikasına səfər etmək istəyən xarici ölkə vətəndaşlarının viza rəsmiləşdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq səfirlik və baş konsulluqlarına müraciət etmələri xahiş olunur. Azərbaycan Respublikasının səfirlik və baş konsulluqlarının konsulluq xidməti xüsusi rejimdə fəaliyyət göstərəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin yanında Operativ Qərargah məlumat yayıb.

Məlumatda deyilir ki, Ümumdünya Səhiyyə Təşkilatının təqdim etdiyi siyahıya əsasən xüsusilə COVİD-19 virusunun geniş yayıldığı ölkələrin vətəndaşlarından viza rəsmiləşdirilməsinə müraciət edərkən COVİD-19 testindən keçmələri barədə tibbi arayış da tələb olunacaq. Bu şərtlər son 14 gün ərzində həmin ölkələrdə olmuş digər əcnəbi vətəndaşlara da şamil ediləcək.

Azərbaycana səfər edən əcnəbi ölkə vətəndaşları fərdi tibbi göstəricilər nəzərə alınmaqla 14 gün müddətinə karantin rejiminə yerləşdirilə və ya ev şəraitində 14 günlük fərdi karantin rejiminə riayət etmələri tələb oluna bilər. Həmçinin əcnəbi ölkə vətəndaşları COVİD-19 testindən keçirilə bilər.

Çin, Cənubi Koreya, İran, Yaponiya, İtaliya, İspaniya, Fransa, Almaniyadan qayıdan Azərbaycan vətəndaşları 14 və ya tələb olunduğu halda, 21 günlük karantin rejiminə yerləşdiriləcəklər.

Bütün vətəndaşlardan COVİD-19 virusu ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan karantin rejiminə riayət etmələri tələb olunur.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, Avropa İttifaqı ölkələri, xüsusilə İtaliya, İspaniya, Fransa, Almaniya və digər ölkələrdə olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizin aidiyyəti səfirlik və konsulluqlarında konsulluq qeydiyyatına düşmələri və olduqları ölkələrin COVİD-19 virusu ilə əlaqədar müəyyən etdikləri karantin qaydalarına riayət etmələri xahiş olunur.

Azərbaycan Respublikası vətəndaşlarının yaxın iki ay müddətinə xüsusi zərurət olmadığı təqdirdə xarici ölkələrə səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur.

*Operativ qərargah:* Koronavirusa yoluxmuş Azərbaycan vətəndaşı vəfat edib

İran İslam Respublikasında müalicə olunduqdan sonra qayıdan Azərbaycan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü qadın səhhətindəki xroniki problemlər azalmadığından xəstəxanaya müraciət edib.

Müayinələr zamanı onda ağır autoimmun xəstəlik olan qırmızı qurdeşənəyi (Sistemik Lupus Eritematozus), 4-cü sinif lupus nefriti və xroniki böyrək çatışmazlığının son mərhələsi olduğu müəyyən edilib. Ağır gedişli autoimmun xəstəlik fonunda xəstədə ciddi ağciyər zədələnməsi və buna bağlı tənəffüs çatışmazlığı, həmçinin yüksək dozalı steroid və kimyəvi dərman müalicəsi fonunda kəskin immun yetməzlik aşkar olunub.

Eyni zamanda həmin şəxsin koronavirus infeksiyasına yoluxduğu müəyyənləşdirilib. Xəstə xüsusi rejimli xəstəxanaya yerləşdirilib, onun vəziyyəti nəzarətə götürülüb və intensiv müalicə tədbirlərinin həyata keçirilməsi davam etdirilib. Bütün səylərə baxmayaraq, həmin şəxsin ağır autoimmun xəstəliyinə bağlı xroniki ağırlaşmaları dərinləşib, çoxsaylı orqan çatışmazlığı inkişaf edib, buna görə həyatını xilas etmək mümkün olmayıb.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin yanında Operativ Qərargah bu barədə məlumat yayıb. Xəstənin ünsiyyətdə olduğu ailə üzvləri və digər şəxslər müəyyən edilib, onlar karantinə götürülüb.

Diqqətə çatdırmaq istəyirik ki, Ümumdünya Səhiyyə Təşkilatı koronavirus (COVİD-19) xəstəliyinin dünyada yayılmasının pandemiya xarakteri aldığını elan edib. Martın 12-nə olan məlumata görə, dünyada 129185 nəfər koronavirusa yoluxub və bu xəstəliyin əhatə dairəsi, yoluxma tendensiyası genişlənməkdədir. Virusa qarşı profilaktik tədbirlər çərçivəsində bir çox dövlətlər risk ölkələri ilə sərhədləri bağlayır, aviareysləri təxirə salır. Əvvəllər də bəyan edildiyi kimi, ürək-damar, eləcə də xroniki xəstəlikləri olanlar, yuxarı yaş kateqoriyasına aid şəxslər virusa qarşı profilaktik tədbirləri daha da gücləndirməlidirlər.

Bir daha vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Operativ Qərargahın virusa qarşı profilaktik tədbirlər çərçivəsindəki tövsiyələrinə ciddi riayət etməyə, insanların kütləvi toplaşdığı yerlərdən uzaq durmağa, tibbi-profilaktik və dezinfeksiya qaydalarına əməl etməyə çağırırıq.

*Operativ qərargah:*

# İctimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə qadağan edilir

Mütəxəssislərlə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə vətəndaşlarımıza müvəqqəti olaraq adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmaq tövsiyə olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, koronavirus (COVİD-19) infeksiyasının tənəffüs damcıları ilə birbaşa təmas yolu ilə ötürüldüyü və yuxarı tənəffüs yollarının infeksiyası kimi təzahür etdiyi nəzərə alınaraq, ölkə ərazisindəki bütün ictimai iaşə obyektlərində çoxdəfəli istifadə üçün nəzərdə tutulmuş qəlyan avadanlıqlarından istifadə qadağan edilir.


Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satınalınması üçün keçirilən

***açıq tenderə dəvət edir***

**Tender 1 LOT üzrə keçirilir.**

Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünəməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqələndirici şəxs İsmət Xaspoladov (012) 596-32-73) ünvanından ala bilərlər.

**İştirak haqqı: 2000,0 (iki min) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/Hesabı: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **20 aprel 2020-ci il saat 17.00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **30 aprel 2020-ci il saat 17.00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **01 may 2020-ci il saat 15.00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



# DÜNYA



Münaqişə

# “Neft müharibəsi” başladı




## Ərəb ölkələri Rusiya ilə qarşı-qarşıya gəlib

Cari ayın əvvəllərində dünya neft bazarı növbəti qiymət şoku yaşadı. Bu, son altı ay ərzində üçüncü şok idi. Sentyabr və yanvarda neft kotirovkalarının kəskin şəkildə artımı ilə müşahidə olunmuş, ardınca irimiqyaslı tənəzzül baş vermişdi. Bu dəfə aşağıya doğru daha sürətli hərəkət nəzərə çarpır.

Dünya neft bazarında yaranmış vəziyyət Rusiya ilə Səudiyyə Ərəbistanı arasında ixtilafdan qaynaqlanır. Martın 6-da Moskva və Ər-Riyad neftin qiymətinə münasibətdə gələcək fəaliyyəti barədə razılaşma əldə edə bilmədi. Rusiya OPEC+ formatında əvvəlki şərtləri qoruyub saxlamağı təklif edir, Səudiyyə Ərəbistanı isə koronavirus üzündən neft hasilatını azaltmağa tərəfdar çıxırdı. OPEC hasilatı cari ilin axırınadək gündə 1,5 milyon barel azaltmağı təklif etmiş, Rusiya isə bu təklifi qəbul etməmişdir. İki tərəf sazişə gələ bilmədiyindən OPEC+ sövdələşməsi qüvvəsini itirmiş, bunun ardınca neftin qiyməti dərhal 30 faiz aşağı düşmüşdür. Beləliklə, gələn aydan etibarən neft hasilatına tətbiq olunmuş bütün məhdudiyyətlər aradan qaldırılacaq.

Bu o deməkdir ki, qlobal neft bazarı bir müddət qeyri-müəyyən şəraitdə yaşamağa məhkumdur. Belə bir şəraitdə karbohidrogen ixrac edən bir sıra ərəb ölkələri öz neftinin qiymətini aşağı salacağını bəyan edərək Rusiyaya qarşı “neft müharibəsi”nə başlamışdır. Əldə olan məlumata görə, İraq Asiya üçün neftin bir barelinin qiymətini 5 dollar ucuz satmağa hazırdır. Bu ölkə həm də gələn ay neft ixracının həcmini artırmağı planlaşdırır. Küveyt neftin qiymətinin 6 dollar ucuz satacağını bildirmişdir.

Öz növbəsində Səudiyyə Ərəbistanı da Şərqi və Cənub-Şərqi Asiya ölkələri üçün nefti 6 dollar ucuzlaşdırmışdır. Krallıq, həmçinin karbohidrogen ixracını xeyli artırmaq niyyətindədir. Ötən çərşənbə axşamı “Saudi Aranco” şirkətinin prezidenti Əmin Nasir “Röyter” agentliyinə bildirmişdir ki, şirkət gələn ay gündəlik neft hasilatını 12,3 milyon barelə çatdıracaq, hərçənd krallıq bundan əvvəl hasilatı OPEC+ sazişi çərçivəsində 9,7 barel/gün səviyyəsində saxlayırdı. Səudiyyə Ərəbistanının ardınca BƏƏ də gələn aydan etibarən neft ixracını 1 milyon barel/gündən çox artırmaq niyyətində olduğunu bəyan etmişdir.

“Qara qızıl”ın qiymətinin kəskin şəkildə ucuzlaşmasının səbəbləri barədə müxtəlif mülahizələr irəli sürülür. Məlumdur ki, yeni tipli koronavirusun yayılması ilə Çində istehsal azalmış, nəticə etibarı ilə dünya neft bazarında təklif tələbi üstələmiş və karbohidrogenin qiyməti aşağı düşmüşdür. Başqa bir mülahizəni ABŞ-ın nüfuzlu “The Wall Street Journal” qəzeti irəli sürmüşdür. Qəzet martın 8-də Səudiyyə Ərəbistanı hakimiyyət orqanlarının adı çəkilməyən nümayəndəsinə istinadən xəbər vermişdi ki, neftin ucuzlaşdırılması birbaşa Rusiyanın mövqeyini zəiflətmək məqsədi güdür: krallıq OPEC+ ölkələri arasında neft hasilatının əlavə olaraq azaldılması barədə ötən həftə keçirilmiş danışıqlar uğursuzluqla başa çatdıqdan sonra belə bir addım atmışdır.

ABŞ qəzetinin bu versiyası elə də inandırıcı görünmür. Belə ki, bütün neft ölkələri, o cümlədən karbohidrogen hasilatında dünya lideri mövqeyinə çıxmış Birləşmiş Ştatların özü qiymətin aşağı düşməsi səbəbindən itirəcək. Rusiyanın itkisi artıq özünü göstərir: neft ucuzlaşandan bəri rus rublu dəyərini itirməyə başlamışdır.

İndi məsələ dünya neft bazarında vəziyyəti sabitləşdirməkdir. Hələlik ixracatçı ölkələr bir araya gəlməyə tələsmir. Bununla belə, aydındır ki, koronavirus təhlükəsi aradan qalxdıqdan sonra bazarda neftə tələbat artacaq. Çin hökuməti gələn ay koronavirusla mübarizənin başa çatacağını bəyan etmişdir. Temperaturun artması ilə yoluxucu xəstəliyin yayıldığı digər ölkələrdə də vəziyyətin sabitləşəcəyi gözlənilir.

Digər tərəfdən, son 15 ilin təcrübəsi göstərir ki, Brent markalı neftin qiyməti uzun müddət aşağı səviyyədə - 30-40 dollar səviyyəsində qalmır. Ekspertlərin fikrincə, cox güman ki, ilin ikinci yarısında bir barel neftin qiyməti 50 dollara, hətta 70 dollara çatacaq. İsti hava şəraitində koronavirusun sönməsi və Çində sənaye istehsalı həcminin bərpa olunması buna şərait yaratmalıdır. Həmçinin dünyanın müxtəlif guşələrində azrentabelli neft yataqlarında hasilatın azalması da müsbət rolunu oynayacaq.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

Qarşıdurma

# Paşinyan Sarkisyanı və Koçaryanı oğurluqda ittiham edir



Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin iki eks-prezidenti - Serj Sarkisyan və Robert Koçaryan, habelə onların silahdaşları barədə yeni səs-küylü ittihamlarla çıxış etmişdir. Hökumətin başçısı bildirmişdir ki, “onlar ordudan oğurluq etmişlər”. Paşinyan Sarkisyanla Koçaryanın oğurladıqları pulu geri qaytarmaq üçün əlindən gələni etməyə hazır olduğunu bildirmişdir.

Paşinyan srağagün tərəfdarları ilə görüşü zamanı hiddətlənərək demişdir: “Mənə orduda vəziyyət barədə hesabat veriləndə hər şeyi atıb bu kabinetdən qaçmaq istədim, çünki vəziyyət fəlakətli idi...” Baş nazir şikayətlənmişdir ki, keçmiş siyasi rəhbərlik Ermənistan və Dağlıq Qarabağın hava hücumundan müdafiə sistemlərini dağınıq vəziyyətdə qoymuş, ordu 1980-ci illərin silahları ilə komplektləşdirilmişdir. O əlavə etmişdir ki, “əsgərlərin qidalanmasına isə ancaq bir ad vermək olardı - it və ayı yalı”.

Bu, son günlər Ermənistanın siyasi rəhbərliyinin səsləndirdiyi ittihamların yalnız biridir. Bunların hamısı keçmiş hakimiyyətin ordunun inkişafına ayrılmış vəsaitləri mənimsəməsinə aiddir. Məsələn, ötən çərşənbə axşamı Paşinyan sələflərini silah alarkən fırıldaqçılıqda ifşa etmişdir. O, bununla bağlı Sünik vilayətində çıxışı zamanı demişdir: “Serj Sarkisyanın dövründə (2008-2018-ci illərdə Ermənistan prezidenti, 2007-2008-ci illərdə baş nazir) ordu üçün 42 milyon dollarlıq silah alınmışdır. Lakin silah alınandan bəri istifadə edilməmişdir. Çünki bu, silah deyil, sadəcə metallolomdur”. Bu faktla əlaqədar artıq cinayət işi qaldırılmışdır.

Paşinyan indi hamını əmin etməyə çalışır ki, hazırda Ermənistan ordusunda vəziyyət başqa cürdür: respublikada ən müasir hava hücumundan müdafiə sistemi və Su-30CM qırıcı təyyarələri var, əsgərlər isə “keyfiyyətli və yaxşı yeməklə” təmin olunurlar.

Bu cür bəyanatlar Konstitusiyaya dəyişikliklər haqqında referendum ərəfəsində təşviqat kampaniyası zamanı səsləndirilir. Əslində aprelin 5-nə təyin olunmuş referendumun əsas məqsədi Paşinyanın rəqiblərinin - Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanın və bir neçə digər hakimin istefaya göndərilməsidir. Belə ki, onları başqa yolla vəzifədən kənarlaşdırmaq mümkün deyil.

Təşviqat kampaniyası zamanı Paşinyan qeyd etmişdir ki, məhz Konstitusiya Məhkəməsi onun sələflərinin cəzalandırılmasına maneçilik törədir. O əmin olduğunu bildirmişdir ki, referendum vasitəsilə oğurlanmış əmlakın qaytarılmasına nail olacaq: “Yaxın beş il ərzində ordumuzun inkişafı üçün 2,5 milyard dollar xərcləməliyik. Bunun azı 1,2 milyardını korrupsiya ilə mübarizə nəticəsində əldə etməliyik. Bu pul Robert Koçaryanda (1998-2008-ci illərdə Ermənistan prezidenti) və onun ailəsində, habelə Serj Sarkisyanda və onun ailəsindədir. Həmçinin başqalarında... Bu Konstitusiya Məhkəməsi onların bundan yaxalarını qurtarması üçün ümiddir.

Bu arada ermənistanlı ekspertlər əmindirlər ki, hətta referendumun nəticəsi müsbət olsa da, qeyd edilən məbləğin geri alınmasına ümid etmək yersizdir. Məsələn, Armenian Research & Development İnstitute təşkilatının direktoru Leonid Nersesyan vurğulamışdır ki, silah alveri şəffaf olmayıb və ona nə qədər pul xərclənməsi barədə danışmaq çətindir.

Fauna

# Keniyada nadir ağ zürafələrin kökü kəsilir



Bu günlərdə brakonyerlər Keniyanın şimal-şərqində iki nadir ağ zürafə öldürmüşlər. Bu barədə “The Star” qəzeti xəbər verir.

Məlumata görə, heyvanları qoruqda öldürmüşlər. İndi orada cəmi bir ağ zürafə qalıb.

Keniyada ağappaq dişi zürafə ilk dəfə 2017-ci ildə aparıcı KİV-də fotoşəkilləri dərc olunduqdan sonra dünyanın diqqət mərkəzinə düşmüşdür. Elmi tədqiqatlar göstərmişdir ki, söhbət albinosdan deyil, heyvanlar arasında xüsusi mutasiyadan - leykizmdən gedir.

Alimlər hesab edirlər ki, Keniyadakı dişi zürafənin genlərində baş vermiş dəyişikliklər heyvanın tamamilə ağ olmasına gətirib çıxarmışdır. İki il əvvəl bir-birinin ardınca onun iki ağappaq balası dünyaya gəlmişdir.

Keniyalı alimlər ümid edirdilər ki, bu ailənin artması ilə zürafələrin yeni növü peyda olacaq. Lakin brakonyerlər ananın və gənc zürafələrdən birinin həyatına son qoydular...

KİV-in xəbərinə görə, ağappaq zürafələr həm də Tanzaniya və Efiopiyada gözə dəymişdir. Lakin orada da heyvanlar brakonyerlərin qurbanı olmuşdur.

Hazırda dünyada cəmi bir ağ zürafə qalıb. O, Keniyanın İşakbini Hirola qoruğunda yaşayır.

Afrika Vəhşi Təbiət Fondunun məlumatına əsasən, son 30 il ərzində qitədə zürafələrin populyasiyası 40 faiz azalmışdır.

Beynəlxalq Təbiəti Mühafizə İttifaqının hesablamalarına görə, zürafələrin sayı 1985-ci ildə 155 mindən 2015-ci ildə 97 minə enmişdir. Bu heyvanların əti qitənin bir neçə ölkəsində yeməkdə istifadə olunur, dəriləri isə ixraca gedir.

Zürafə planetdə ən hündür heyvandır. Onun boyu 6 metrə çatır.

Bu nəhənglər Afrika qitəsində, Saxara səhrasının cənubunda yaşayır, Savannadakı nadir ağaclardan və kolluqlardan qidalanır. Ömürləri azadlıqda 25 ilə, heyvanxanada yaxşı şəraitdə saxlanıldıqda isə 30 ilə çatır.

Zürafələrin düşməni azdır. Ən ciddi rəqibləri isə aslan və insandır. Böyük heyvanlar aslanla bacara bilir. Güclü dırnaq zərbəsi vəhşi heyvanı uzunayaqlı şikara baş qoşmaq həvəsindən dərhal məhrum edir. Buna görə aslanlar əsasən zürafələrin balalarını ovlayır.

## İraqda ABŞ hərbi bazası atəşə tutuldu

ABŞ-ın İraqda yerləşən “Kemp-Tac” bazası raket atəşinə tutulmuşdur. Bu barədə CNN telekanalı xəbər verir.

Hücum nəticəsində iki amerikalı və bir britaniyalı hərbi qulluqçu həlak olmuşdur. Koalisiyanın rəsmi nümayəndəsi Maylz Kegginsin verdiyi məlumata görə, daha 12 hərbçi yaralanmışdır.

“Röyter” agentliyinin xəbərinə görə, baza istiqamətinə 15-ə yaxın kiçik raket atılmışdır.

## Konqres Trampın hərbi səlahiyyətlərini məhdudlaşdırdı

ABŞ Konqresi ölkə Prezidenti Donald Trampın İrana münasibətdə hərbi səlahiyyətlərini məhdudlaşdıran qətnamə qəbul etmişdir. Sənədin lehinə Nümayəndələr Palatasının 227 üzvü səs vermişdir. 186 konqresmen qətnamənin əleyhinə çıxmışdır. Bu barədə “Alman dalğası” radiostansiyası xəbər verir.

Sənəd Ağ evin başçısına Konqresin ilkin razılığı olmadan İrana qarşı hərbi hərəkətləri qadağan edir.

Qətnamənin təşəbbüskarı, demokrat senator Tim Keyn məsələ ilə əlaqədar demişdir: “Əgər Prezident Tramp ardarası kəsilməyən müharibələri dayandırmaq vədinə ciddi yanaşırsa, o, qətnaməni imzalayacaq”.

Lakin dövlət başçısı sənədə veto qoya bilər.

Xatırladaq ki, bu il yanvarın əvvəllərində Trampın əmri ilə İraqın paytaxtı Bağdadın beynəlxalq hava limanının yaxınlığında iranlı general Qasım Süleymani raket zərbəsi ilə öldürülmüşdür. Onun ölümündən sonra ABŞ-la İran arasında münasibətlər xeyli gərginləşmişdir.

## Suriyada 18 iraqlı əsgər həlak oldu

Suriyanın İraqla sərhəddə yerləşən Bu-Kamal rayonunda beynəlxalq koalisiyanın bombardmanı nəticəsində İraqın “Həşdi-şəəbi” şiə birləşmələrinin azı 18 əsgəri həlak olmuşdur. Bu barədə “əl-Hədəs” telekanalı xəbər verir.

Suriyalı hüquq müdafiəçilərinin məlumatına əsasən, bombardmana Bu-Kamalın şərqində fəaliyyət göstərən iranpərəst qruplaşmalarından biri məruz qalmışdır. Hücum Bağdadın şimalında Amerika hərbi qulluqçularının yerləşdiyi bazanın raket atəşinə tutulmasına cavab olmuşdur.

Koalisiyanın raket zərbəsi nəticəsində “Həşdi-şəəbi”nin komandirlərindən biri ağır yaralanmışdır. Bundan əlavə, Suriyanın Deyr əz-Zor şəhərinin yaxınlığında daha bir zərbə nəticəsində iranpərəst qüvvələrin 30-a yaxın əsgəri yaralanmışdır.

## Mexiko metrosunda qatarlar toqquşdu

Meksikanın paytaxtı Mexikoda metronun iki qatarı bir-birinə çırpılmışdır. Qəza nəticəsində bir nəfər həlak olmuş, 41 nəfər yaralanmışdır. Bu barədə “El Universal” qəzeti xəbər verir.

Hadisə Takubaya stansiyasında baş vermişdir. Meksikanın Baş Naziri Klaudia Şeibaum qəza yerinə getmişdir. Hadisə yerində işləyən mütəxəssislər qəzanın səbəblərini araşdırırlar. Yaralılar şəhərin tibbi müəssisələrinə yerləşdirilmişlər.

Sağlamlıq

# Koronavirusun yayılması pandemiya elan olundu

Dünya Səhiyyə Təşkilatı (DST) dünyada yeni tipli koronavirusun yayılmasını pandemiya elan etmişdir. DST-nin baş direktoru Tedros Qebreyesusun dediyinə görə, “biz belə bir qənaətə gəlmişik ki, COVID-19 xəstəliyi pandemiya kimi qiymətləndirilə bilər”. DST bundan əvvəl bu xəstəliyin yayılmasını çoxocaqlı epidemiya kimi qiymətləndirmişdi. Təşkilatın başçısı xəstəliyin yayılması səviyyəsindən və ağırlığından narahatlığını ifadə etmişdir.



Qebreyesus xəbərdarlıq etmişdir ki, “pandemiya” sözünə ehtiyatla yanaşmaq lazımdır, çünki ondan səhv istifadə edilsə, bu, qorxu doğura, yaxud belə bir səhv təsəvvür yarada bilər ki, xəstəliklə mübarizə məğlubiyyətlə nəticələnmişdir. Bu isə lazımsız əzab-əziyyətlərə və ölüm hallarına gətirib çıxara bilər. DST-nin baş direktoru vurğulamışdır ki, xəstəliyin pandemiya kimi səciyyələndirilməsi virus təhlükəsinin qiymətləndirilməsində heç nəyi dəyişdirmir, DST-nin fəaliyyətinin, həmçinin yoluxucu xəstəliklə mübarizədə ölkələr qarşısında duran vəzifələrin dəyişməsinə gətirib çıxarmır.

DST-nin baş direktoru dünya dövlətlərini koronavirusla mübarizə aparmaq üçün təcili tədbirlər görməyə çağırmışdır. O xatırlatmışdır ki, 81 ölkədən xəstəliyin mövcudluğu barədə indiyədək məlumat daxil olmamış, 57 ölkədə isə 10-dan az xəstə qeydə alınmışdır. Onun dediyinə görə, əsas diqqət virusun yayılmasının dayandırılmasına yönəldilməlidir. DST-nin rəhbəri daha çox xəstələnmə hallarının qeydə alındığı İran, İtaliya və Koreya Respublikasına virusun yayılmasının qarşısını almaqda göstərdiyi səylərə görə təşəkkür etmişdir.

DST rəhbərliyinin qeyd etdiyi kimi, COVID-19-un pandemiya elan olunması insanlar üçün hər hansı məhdudiyyətin tətbiq olunması mənasına gəlmir. Bu, koronavirusun yayılmasının formal mərhələsidir. Yəni xəstəlik əvvəlcə ortaya çıxır, sonra virusun yayılması epidemiya mərhələsinə keçir. Dünyanın çoxsaylı ölkələrinə, yaxud bütün qitələrə yayılan epidemiya pandemiya adlanır. DST tövsiyələr verməkdən başqa, hansısa əlavə tədbirlər tətbiq edə bilmir. Pandemiyanın baş verdiyi halda hər bir ölkə özünün bildiyi kimi hərəkət edir.

Özü də hansısa xəstəliyin pandemiya mərhələsinə keçməsi yeni hadisə deyil. 2009-2010-cu illərdə “donuz qripi”nin yayılması pandemiya kimi qiymətləndirilmişdir. DST-nin məlumatına görə, bu qrip dünyanın 214 ölkə və ərazisini bürümüş, Yer kürəsi əhalisinin 30 faizinə sirayət etmişdir. 2012-ci ildə alimlər, o cümlədən DST-nin ekspertləri belə qənaətə gəlmişlər ki, bu xəstəlik nəticəsində təxminən 284,5 min nəfər vəfat etmişdir.

2009-cu ildən sonra DST beş dəfə beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyət barədə məlumat vermişdir: 2014-cü ildə Ebola virusu, 2016-cı və 2018-ci illərdə Zika virusu, 2020-ci il yanvarın 30-da 2019-nCoV koronavirusu ilə əlaqədar belə bir vəziyyət elan olunmuşdur.

Hazırda COVID-19 koronavirusuna yoluxma halları dünyanın 124 ölkəsində qeydə alınmış, 126 min nəfərdən çox adam xəstələnmişdir. Virus, demək olar ki, bütün qitələrdə yayılmışdır. Avropada yoluxucu xəstəlikdən daha çox İtaliya zərər çəkmişdir. Burada yoluxucu xəstəliyə 12462 yoluxma halı aşkarlanmış, 827 nəfər vəfat etmişdir. Ölkədə bar və restoranlar, həmçinin sənaye malları mağazaları müvəqqəti olaraq bağlanmışdır. ABŞ sabahdan etibarən Böyük Britaniya istisna olmaqla Avropa ölkələrindən gələn sərnişinlərin qəbulunu 30 gün müddətinə dayandırmışdır. Rusiya İtaliya, Almaniya, Fransa və İspaniya ilə aviasiya əlaqəsini məhdudlaşdırmışdır.

Türkiyə hakimiyyət orqanları turizm şirkətlərinə turizm mövsümünü təxirə salmağı tövsiyə etmişdir. Mədəniyyət və Turizm Nazirliyi mehmanxanalara və turizm şirkətlərinə mövsümün başlamasını martdan aprelin ikinci yarısına keçirməyi təklif etmişdir.

Hindistan hökuməti yeni tipli koronavirusun yayılması ilə əlaqədar sabahdan etibarən turist vizalarının qüvvəsini müvəqqəti olaraq dayandırmaq qərarına gəlmişdir. Eyni addımı Tailand da atmışdır. Bu ölkənin hakimiyyət orqanları koronavirusla mübarizə çərçivəsində 18 ölkənin vətəndaşlarına viza verməyi dayandırmışdır.

Küveyt rəhbərliyi nazirlik və hökumət departamentlərinin işini martın 26-dək dayandırmışdır. Küveyt Banklar Assosiasiyası məlumat vermişdir ki, ölkə bankları da göstərilən müddətdə işini dayandırır. Hər bir vilayətdə hər bir bankın yalnız bir filialı açıq qalacaq.

# "Azərenerji"nin bütün obyektlərində dezinfeksiya işləri aparılır





"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, gecə-gündüz növbəli iş prinsipi ilə fəaliyyət göstərən, bir saniyə də olsun elektrik enerjisinin istehsalı və ötürülməsini dayandırmamaq məsuliyyətini daşıyan "Azərenerji" ASC koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirir.

Bu məqsədlə səhmdar cəmiyyətin bütün elektrik stansiyaları, yarımstansiyaları, regional elektrik şəbəkələrində və digər obyektlərində insanların işlədiyi bütün binalarda, o cümlədən yardımçı tikililərdə koronavirusun yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə zəruri tədbirlər görülür, dezinfeksiya işləri aparılır. İş otaqlarında, zallarda, idarəetmə mərkəzlərində və digər otaqlarda, dəhlizlərdə, pilləkənlərdə, foyelərdə xüsusi dərmanlanma işləri həyata keçirilir.

Bundan əlavə, koronavirusla bağlı təbliğat-təşviqat və maarifləndirmə işlərinin gücləndirilməsi məqsədilə də tədbirlər görülür. Əməkdaşlar tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri əsasında xəstəliyin simptomları və onun yayılmasının qarşısının alınması yolları haqda məlumatlandırma işləri həyata keçirilir.

# Mehmet KARACA: "İnanıram ki, Bakı Ali Neft Məktəbi çox tezliklə regionda söz sahibi olacaq"

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımovun dəvəti ilə İstanbul Texnik Universitetinin rektoru, professor Mehmet Karacanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. Səfər çərçivəsində Bakı Ali Neft Məktəbinin rəhbərliyi və professor-müəllim heyəti ilə işgüzar görüşlər keçirilib və nəticədə BANM ilə İTU arasında əməkdaşlığa dair memorandum imzalanıb. İstanbul Texnik Universitetinin rektoru, professor Mehmet Karaca ilə müsahibəni oxuculara təqdim edirik:

*- İlk olaraq Bakı haqqında təəssüratlarınızı bilmək istərdik.*

- Bu, mənim Bakıya dördüncü səfərimdir. Hər dəfə gələndə Bakını çox fərqli rakurslardan kəşf edirəm. Bakı min illər əvvəl əsası qoyulmuş qədim şəhər ab-havası ilə müasirliyin harmoniyasını özündə sintez edir. Məhz bu cəhəti ilə Bakı məni təsirləndirir. Həmçinin şəhər geniş küçələri, mədəni və gülərüz insanları ilə göz oxşayır. Düşünürəm ki, Bakıya növbəti gəlişimdə yenə də fərqliliklərin şahidi olacağam.

*- İstanbul Texnik Universitetini uğurlu edən nədir?*

- İstanbul Texnik Universiteti təxminən 247 illik tarixə malik olan və Türkiyənin ən qədim və mühəndislik sahəsində ən prestijli universitetlərindəndir. Burada ciddi bir universitet ənənəsi formalaşıb. İstanbul Texnik Universiteti yeni nəsil universitetlər üçün nümunə sayılacaq ali təhsil müəssisəsidir. Belə ki, bizim universitet dünya trendlərinə ən tez uyğunlaşan və yeniliklərə ən çox açıq universitetlər siyahısında ən qabaqcıl ali təhsil müəssisələrindəndir. İstanbul Texnik Universiteti həm də Türkiyədə ciddi nüfuza sahib məzunların yetişdirilməsi ilə diqqət çəkir. Bizim məzunlar içərisində tanınmış şirkət rəhbərləri, Türkiyənin ictimai-siyasi həyatında mühüm rol oynamış və Türkiyə xalqının vizyonunu formalaşdırmış liderlərdən Süleyman Dəmirəl, Turqut Özal, Nəcməddin Ərbakan kimi nüfuzlu məzunları var. Bundan əlavə, Türkiydə tikinti podratçılarının yetişdirilməsində bu universitet mühüm rol oynayır: 10 podratçıdan 8-i bizim məzunların payına düşür.

*- Bakı Ali Neft Məktəbində təhsil üçün yaradılan şəraiti necə dəyərləndirirsiniz?*



- Öncə onu deyim ki, Ali Məktəbinizdə olmaqdan qürur və şərəf duyuram. Başda rektor Elmar Qasımov olmaqla, bizi qarşılayan Ali Məktəbin bütün əməkdaşlarının qonaqpərvərliyindən çox məmnun qaldım. Buna görə bütün heyətə təşəkkür edirəm.

Onu da xüsusi qeyd etmək istəyirəm ki, Bakı Ali Neft Məktəbi 8 ildə inanılmaz dərəcədə inkişaf edib, bir ali təhsil müəssisəsinin qazana biləcəyi uğurları çox qısa zamanda əldə edə bilib. Ən əsası Ali Məktəb komandası ilə məni çox təsirləndirdi. Komandada olan insanlar qlobal düşüncəyə, vizyona sahibdirlər. Başda rektor olmaqla bütün heyətin gözündə gələcəyə dair işıq gördüm, onların yeniliklər və inkişaf üçün açıq və həvəsli olduqlarını hiss etdim. Ali Məktəbin qoyduğu hədəflər və gözləntilər də böyükdür. Düşünürəm ki, komandadakı insanlar bu enerji ilə qoyulmuş hədəflərə də çatacaqlar. Azərbaycanın dünya standartlarına cavab verən, gələcəyin mühəndislərinin yetişdirilməsində BANM ölkə təhsilində ciddi rol oynayır. İnanıram ki, Bakı Ali Neft Məktəbi çox tezliklə regionda da söz sahibi olacaq.

*- İstanbul Texnik Universiteti Bakı Ali Neft Məktəbi ilə hansı istiqamətdə əməkdaşlıq edəcək?*

- Təbii ki, əməkdaşlığımızın əsas ana xətti mühəndislik sahəsində olacaq. Bundan əlavə, bilgi texnologiyaları, süni zəka ilə bağlı işlər də planlaşdırılır. Hələlik üç istiqamət müəyyən etmişik: ilk istiqamət olaraq Bakı Ali Neft Məktəbində Kompüter mühəndisliyi ixtisasını formalaşdırmaq və onun icrası ilə bağlı bütün detallar üzərində işləməyi düşünürük. İkinci istiqamət kimi ortaq layihələr, birgə fəaliyyət imkanları, tələbə mübadiləsi proqramlarının genişləndirilməsi nəzərdə tutulur. Üçüncü istiqamət isə odur ki, BANM-də Texnoparkla bağlı Startap Mərkəzi qurmağı hədəfləyirik.

***B.MİRZƏYEV, "Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 27.02.2020-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının 11 mart 2020-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən yenidən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Mərkəzi Bank üçün elektrik mallarının satın alınması ilə bağlı kotirovka sorğusu elan olunur.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 02 aprel 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 03 aprel 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında Satınalmalar komissiyası tərəfindən açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Nazirliyin Aparatında xidməti istifadədə olan "Siemens" markalı, HiPath 3550 telefon sisteminin il ərzində altı dəfə profilaktik texniki baxışdan keçirilməsi, sistemdə proqram dəyişikliyi və ya nasazlığın aradan qaldırılması və servis xidmətinin (proqram dəyişmələri, telefon aparatlarının və rabitə xətlərinin yoxlanılması, texniki nasazlıqların aradan qaldırılması) göstərilməsi xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 17 mart 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən bioloji aktivlərin alınması və yetişdirilməsi işlərinin satın alınması məqsədilə keçirilən kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 06 mart 2020-ci il tarixli yekun protokoluna əsasən, fiziki şəxs Hüseynov İlham İdris oğlu qalib elan edilmişdir.

Qalib gəlmiş hüquqi şəxslə 13.02.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *tender elan edir*

LOT 1: Avtonəqliyyat vasitələrinə texniki xidmət, sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: 500 AZN məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesabı: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO9999538100042000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq setifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **09 aprel 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **17 aprel 2020-ci il saat 15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **20 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Şəki Şəhər İcra Hakimiyyəti 2020-ci il üçün Mənzil Fondunun əsaslı təmiri işlərinin satın alınması üçün elektron satınalma vasitəsilə keçirilən *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

LOT 1. 2020-ci il üçün mənzil fondunun əsaslı təmiri işlərinin satın alınması.

**İştirak haqqı - 400 (dörd yüz) manat**

**Təşkilat: Şəki Şəhər İcra Hakimiyyəti**
**HESAB: AZ03A11B32051019447000201170**
**VÖEN: 3000104011**
**BANK: "Kapital Bank" ASC Şəki filialı**
**Kodu: 200703**
**VÖEN BANK: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**
**Əlaqələndirici şəxs: Alxasov Taleh tel:(02424) 4-28-70**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07.04.2020-ci il saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **15.04.2020-ci il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16.04.2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və bütün digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Qubadlı Rayon İcra Hakimiyyəti abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi üçün *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək:

LOT-1. Abadlaşdırma, yaşıllıqların mühafizəsi və yolların çəkilməsi.

Tenderlə əlaqədar məlumat almaq istəyənlər əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Təyyar Eminov**
**Telefon: 018 654-38-68**
**Mobil: 050 286-39-69**
**Ünvan: Sumqayıt şəh, İnşaatçılar qəs, Kimyaçılar küç 2.**

**Qubadlı Rayon İcra Hakimiyyəti**
**VÖEN: 4600025881**
**Turanbank ASC Sumqayıt filialı**
**Kodu: 508212**
**VÖEN: 1300016391**
**Müxbir hesabı: AZ26NABZ01350100000000027944**
**S.W.I.F.T.BIK: TURAAZ 22**
**Hesab №: AZ85TURA36015002260700102944**
**VÖEN: 4600022691**

Qubadlı Rayon İcra Hakimiyyəti abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi üçün açıq tender elan edir.

İştirakçılar tenderdə iştirak etmək üçün **20 aprel 2020-ci il saat 16:00-a qədər** aşağıdakı sənədləri poçt vasitəsilə və ya şəxsən təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirakçının son bir illik maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN) və kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, ehtiyac olduqda lisenziya) surətləri;*
- *ərizə, tender təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iştirakçının potensial imkanlarının olması haqqında məlumat (müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar);*
- *müvafiq hallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair son vergi ilində təmin edilməmiş öhdəliklərin olub-olmaması haqqında arayış.*

Tendir təklifi 2 nüsxədə (əsli və surəti) və tender dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə **23.04.2020-ci il saat 16:00-a qədər** ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Sumqayıt şəhəri, İnşaatçılar qəs, Kimyaçılar küç., 2 ünvanında yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin binasına təqdim edilməlidir.

İştirakçının tender zərfləri Qubadlı Rayon İcra Hakimiyyətinin binasında **24.04.2020-ci il saat 10:00-da** açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender üzrə bütün prosedurlar (yazışmalar, sənədləşmə və s.) Azərbaycan dilindədir.

Təkliflərin qiymətləndirilməsində aşağı qiymət, yüksək keyfiyyət, işin vaxtında yerinə yetirilməsi, tam şəkildə başa çatdırılması kimi meyarlara üstünlük veriləcəkdir.

İştirakçının tender təklifi tender zərflərinin açıldığı gündən ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

### *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

LOT 1. “Çap işlərinin və dizayn xidməti”nin satın alınması

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçərək tender haqqında ətraflı məlumat əldə etsinlər. Tenderdə iştirak haqqı ödənildikdən sonra Portal vasitəsilə tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: 100 AZN**

**BANK: AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN DÖVLƏT XƏZİNƏDARLIĞI AGENTLİYİ**
**KODU: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**ADI: AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ**
**H/H: AZ88CTRE00000000000002308301**
**VÖEN: 1700272511**
**FOND : 7**
**B.T.KODU: 142330**

**İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün elektron müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *dövlət satınalmalarının vahid internet Portal vasitəsilə tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (Forma 2) (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ixtisasına dair məlumatlar;*
- *işlərin keyfiyyətinə dair zəmanət.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün tələb olunan sənədləri **08.04.2020-ci il saat 14:00-a** qədər, tender təklifi ilə bank təminatını isə **17.04.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.04.2020-ci il saat 14:00-da** açılacaq.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız satınalmaların vahid internet Portalı vasitəsilə həyata keçirilir.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Ünvan: Bakı şəhəri, Xırdalan, Binəqədi şosesi, 4

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1: Təsərrüfat mallarının satın alınması**

**İştirak haqqı: 600 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat VÖEN: 9900063851**
**Hesab: AZ45CT00000000000002078506**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**
**Büdcə təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (03.02.2020-ci il tarixdən sonra alınmaqla zəruridir);*
- *rekvizitlər (notarial qaydada təsdiqlənməlidir);*
- *qeydiyyatdan keçdiyi ölkə (zəruridir);*
- *nizamnamə (notarial qaydada təsdiqlənməlidir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (03.02.2020-ci il tarixdən sonra alınmaqla zəruridir);*
- *maliyyə vəziyyəti haqqında bank arayışı (03.02.2020-ci il tarixdən sonra alınmaqla zəruridir);*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirməklə zəruridir);*
- *tender təklifi (təklif zərfləri açıldıqdan sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldıqdan sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

Satınalma müqaviləsinin dəyəri 100.000,00 ABŞ dollarının manat ekvivalentinə bərabər və ya ondan yüksək olarsa, müqavilə dəyərinin 2 faizi həcmində təminat tələb olunacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **07.04.2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank zəmanətini isə **15.04.2020-ci il saat 16:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri **16.04.2020-ci il saat 16:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri): Əvəz Mahir oğlu Məmmədzadə BDYPİ-nin inspektoru, tel.: 012 590-81-60

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC Bakı şəhərində və regionlarda (şəhər, qəsəbə və kəndlərdə) yerləşən inzibati və poçt şöbəsi binalarında cari təmir işləri layihəsi üzrə tender elan edir

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | Bakı şəhərində və regionlarda (şəhər, qəsəbə və kəndlərdə) yerləşən inzibati və poçt şöbəsi binalarında cari təmir işləri |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

LOT 1 200 manat məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **09 aprel 2020-ci il saat 17:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **17 aprel 2020-ci il saat 17:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **20 aprel 2020-ci il saat 12:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Quliyev Zülfiqar - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - 48 000 (qırx səkkiz min) km məsafəyə iri qabaritli və ağır tonnajlı yüklərin TKQ-na daşınması üçün (yüklənib, boşaltmaq şərtilə) logistika xidmətinin satın alınması

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom”Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **08 aprel 2020-ci il saat 11:00-dək**, tender təklifini və tender təklifinin bank təminatını isə **16 aprel 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **17 aprel 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### *açıq tenderə dəvət edir*

DOST Agentliyi üçün minivan tipli avtonəqliyyat vasitələrinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *rəsmi nümayəndəliyin olmasını təsdiq edən sənəd;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 08.04.2020-ci il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 16.04.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 17.04.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti əlvan metalların satın alınması

### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla “Tender” bölməsindən müsabiqə ilə bağlı ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 03 aprel 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

**Ünvan:** Bakı, Heydər Əliyev prospekti, 152, “Çinar plaza” Biznes Mərkəzi, 24-cü mərtəbə.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi “Azərişıq” ASC-nin İnkişaf və İnvestisiya Departamentinin direktoru Toğrul Rəhimova əzizi

**KƏRƏM KİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev AHİK-in Maliyyə şöbəsinin müdiri Qalib Qəribova əmisi

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Layihələrin İdarəedilməsi Departamentinin rəisi

**KƏRİM VİLAYƏT OĞLU SULTANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri, Binəqədi rayonu 25 nömrəli şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova və poliklinikanın kollektivi II terapiya şöbəsinin müdiri Xədicə Babayevaya atası

**GÜLÜ BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6953
Sifariş 861
Qiyməti 40 qəpik